

# Ermənistan rəhbərliyinin yeni imitasiya oyunu

*Ermənistanın baş naziri Nikol Paşinyan 44 günlük Vətən Müharibəsindəki fiaskosundan sonra başlatdığı siyasi oyunlarını davam etdirir. Ermənistan mətbuatının yazdığına görə, baş nazir aldadıcı oyunlarının növbəti mərhələsinə start verib. "Unikal" Ermənistanın "Past" qəzetinə istinadən xəbər verir ki, baş nazir əvvəllər tənqid etdiyi...*

Səh.9


UNİKAL

№33 (2071) 10 sentyabr 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




# Elman Rüstəmov yenidən tənqid hədəfində



Səh.3

# Hesablama Palatası AMEA-da maliyyə maxinasiyaları aşkarladı

## Problemli kreditlər həqiqətən azalmışdımı, yoxsa...

*Azərbaycanda vaxtı keçmiş kreditlər mövzusu yenidən aktuallaşıb. Bu da təsadüfi deyil. Məsələ ondadır ki, sözügedən kreditlərin məbləği bu ilin avqustun 1-nə 937,5 milyon manat təşkil edib. Mərkəzi Bankın məlumatına görə, həmin məbləğ iyul ayı ilə müqayisədə 2,5 % çox, ilin əvvəlinə nisbətən isə 5 % çoxdur. Vəziyyətin bu cür davam etməsi nəyə səbəb ola bilər və çıxış yolu nədir? Mövzunu şərh edən iqtisadçı-ekspertlərin fikrincə, pandemiya dönəmində kiçik və orta sahibkarlar, həm də vətəndaşlara verilən kredit borclarına görə böyük dəstək paketi təəssüf ki, qəbul olunmayıb. Belə ki, ötən ilin aprelində kommersiya krediti alan kiçik və orta sahibkarlar üçün faizlərin yarıbayarı hesablanması ilə bağlı bir...*

Səh.8

## "ReAL hakimiyyətə gələndə baş nazir olacam"



*Azərbaycanda siyasi səhnədə münasibətlər sistemində hər zaman problem olub. İstər iqtidar-müxalifət, istər müxalifət daxili münasibətlərdə dayanıqlı və sivil münasibətlər olmayıb. Bu istiqamətdə müəyyən səylər olsa da, ciddi nəticə yoxdur. "Unikal" qəzetinə müsahibə verən ReAL Partiyanın...*

Səh.4

## Qarabağdakı rus sülhməramlıların komandanı o təyin olundu



*General-mayor Mixail Kosobokov Azərbaycanın Qarabağ bölgəsindəki Rusiya sülhməramlı kontingentinin komandiri vəzifəsinə təyin olunub. "Unikal" xəbər verir ki, bu barədə məlumatı "Sputnik Ermənistan" yayıb. Məlumata əsasən, Ermənistanın müdafiə naziri Arşak Karapetyan rus sülhməramlıların...*

Səh.2

## Təhsilimizdə "Misir Mərdanov nostalgiyası"...



*Azərbaycanda təhsil müəssisələri və onların rəhbərləri ilə bağlı qalmaqallar səngimir. Elə həftə yoxdur ki, bu mövzuda hansısa ilginc xəbər yayılmasın. Yola sadığımız həftə də bu mənada, təəssüf ki, istisna olmadı. Məsələn, Gəncədə Peşə Liseyi və məktəblərdə mənimsəmə ilə bağlı...*

Səh.5

# “Gözləyirdim ki, görüm nazirimiz çıxıb nə deyəcək?” - Xalq artisti



***”Pandemiyaya görə sözün düzü hər il olduğu kimi bu il ənənəvi istirahətimi edə bilmədim. Hər yay xarici ölkəyə gedirdim, bu il xəstəliyə görə getmədim. Elə Bakıda, rayonlarımızdakı istirahətlə kifayətləndim. Təki sağlıq olsun, bu xəstəlik bitsin, normal, əvvəlki həyatımıza qayıdaq. Bir-iki il harasa getməsək dünya dağılmayacaq ki? Biz sənət adamları üçün bu iki qat əziyyət və zülmdür. Amma nə etməliyik? Sözsüz ki, dözməliyik! Sözün düzü, müharibə başlayandan, şəhidlərimizə görə 1-2 efir istisna olmaqla heç bir efirə də getmədim. Allah onlara rəhmət etsin, ruhları şad olsun”***

“Unikal” xəbər verir ki, bunu moderator.az-a açıqlamasında Xalq artisti, tanınmış xanəndə Aygün Bayramova deyib. O daha sonra pandemiya dövründə pedaqoji fəaliyyətindən də danışıb.

”Bildiyinizə görə mən həm Milli Konservatoriyada, həm də Asəf Zeynallı adına orta ixtisas məktəbində pedaqoji fəaliyyətlə məşğulam. Biri var ki, sinifdə auditoriyada canlı ünsiyyət, biri də var ki, uzaqdan-uzaqa onlayn dərs. Canlı ünsiyyətin yerini onlayn dərs verə bilməz. İnanın ki, universitetlərlə bağlı qərarı səbrsizliklə gözləyirdim ki, görüm Təhsil Nazirimiz çıxıb nə deyəcək?” deyə xanəndə bildirib.

Xalq artisti daha sonra gənc xanəndələrdən, onların sənətə qarşı etinasız münasibətindən danışıb.

”Bizim vaxtımızda ab-hava daha başqa idi. Biz daha çox sənətimizə fikir verirdik, muğamlarımızı daha mükəmməl öyrənirdik. Beynəlxalq Muğam Müsabiqəsi 2005-ci ildə Speys telekanalında sms-lə başlamışdı. 2007-ci ildə Heydər Əliyev Fondu bu müsabiqəni öz üzərinə götürdü, sms-i ləğv etdi və Dövlət Televiziyasına həvalə etdi. Sms səsləri münsif heyətinin qərarları, seçimi ilə əvəzləndi. Amma baxırsan ki, həmin xanəndələr daha çox işlər görə bilərdilər. Hətta Əlibaba Məmmədov bir dəfə müsabiqənin canlı efirində dedi ki, burada elə muğam ifaçıları var idi ki, mən onlardan çox şeylər gözləyirdim, amma təəssüflər olsun ki, onlar çox iş görmədilər, maddiyatın arxasınca qaçdılar, xanəndə kimi yetişə bilmədilər. Həqiqətən də Əlibaba müəllimin sözlərində həqiqət var. Mən elə özüm də bəzi ifaçılardan çox şey gözləyirdim, amma əksinə oldu. Elə bil ki, onlar efirlərə çıxdılar ki, ancaq görünsünlər, tanınsınlar, hətta müsabiqə bitməmiş başladılar toylara, məclislərə getməyə. Getsinlər toya, toy bizim adət ən-ənəmizdir. Amma hər şey vaxtında yaxşıdır. Maddiyat hər zaman var. Elə xanəndələr var ki, baxırsan ki, heç 35-40 yaşı yoxdur, artıq səsi tükənmək üzrədir. Toylarda səsdən o qədər istifadə ediblər ki” deyə xanəndə bildirib.

”Bəs Aygün Bayramova toylara getmirmi?” sualına isə xanəndə belə cavab verib.

”Mən tələbəlik illərində, 4-cü kursda bəlkə də tək-tük toylara gedərdim. Tanınmayanda da, tanınanda da heç vaxt maddiyatı sənətdən üstün tutmamışam. Bunu mənim tələbə yoldaşlarım da, sənət yoldaşlarım da çox gözəl bilirlər. Mən hər toyun arxasınca qaçmamışam, hər deyilən məclisdə oxumamışam. Təbii ki, bu günki gündə də bu belədir. Nəinki mən, bizim nəsildən olan bir çox xanəndələr buna önəm verir. Bəzən elə gəncləri görürəm ki, özünü toyla, toy mahnıları ilə reklam edir. Xanəndədir, amma elə repertuarla efirə çıxır ki, ona yaraşdırmıram. Səni xalq sevirsə nə oxusan onsuz da toylara dəvət edəcəklər. Təəssüfləndirici məqamdır ki, indi hamıya efirlərdə sənətkar deyirlər. Onlara sənətkar deyirlərsə, onda sənətkarlara nə demək lazımdır? Təbii ki, bu söz bütün aparıcılarımıza aid deyil. Biz belə olmamışıq, sənətkarın yanında danışa bilərdik?! İndi hamı oxumaqdan çox danışır. Amma elə gənc xanəndələr də var ki, məsləhətə, tövsiyyəyə qulaq asırlar” deyə Xalq artisti bildirib.



# Aygün Kazımova Covid-19-a yoluxdu: "3 günü ağır keçirdim"

***Xalq artisti Aygün Kazımova koronavirusa yoluxub.*** Bu barədə sənətçi İnstaqram hesabında məlumat verib. Müğənni xəstəliyi ağır keçirdiyini bildirib:

”Mən də bir çoxlarınız kimi koronavirusa yoluxdum. Son 3 günü ağır keçirdim. Hərarətim 37-38,5 idi. Bədənim çox ağrıyırdı, özümü halsız və gücsüz hiss edirdim. Bəxtimə çox gözəl həkim düşdü. Onun mənə yazdığı müalicə sayəsində 10 gün ərzində sağaldım. Doğurdan da ağır xəstəlikdir. Hazırda hər şey yaxşıdır. Özünüzü qoruyun. Bütün xəstələnənlərə şəfa diləyirəm”.

# "Yoldaşımdan boşananda mənə deyirdilər ki..." - Roza Zərgərli



***Müğənni Roza Zərgərli ”Üzə-düz” verilişində qonaq olub.***

“Unikal” big.az-a istinadən xəbər verir ki, Roza veriliş zamanı keçmiş həyat yoldaşının ona qarşı olan xəyanətindən danışıb:

”Mənə görə qadın heç vaxt məğlub olmur. Qadın pişik kimidir. 12-ci mərtəbədən də yerə düşsə, yenə ayaqları üstə qalxa biləcək. Yoldaşımdan boşananda mənə deyirdilər ki, məğlub oldun. Dedim yox, əslində mən onu boş buraxmışdım deyə, o mənə xəyanət etdi. Bir şey mənimdirsə, mənimdir. Əgər o nəsə axtardısa, məni itirdi. Dostlar deyirdi ki, bəlkə mən özümü güclü göstərirəm. Mən həyata bir dəfə gəlirəm. Heç bir pis hərəkət etmədən ömrümü, günümü, həyatımı sənə vermişəm. Həmişə Allaha demişəm ki, mənim ömrümdən kəs ona cala. Əgər sən bunu itirdinsə, sən itirdin! Qısqanc deyiləm. Xəyanət edən şəxs özünü və sevdiyi şəxsi itirir. O kişi xəyanət edir ki, qadın ona izin verir. Çox sevsə idim, xəyanəti bağışlayardım. Vaxtında da bağışladım amma bu dəfə fərqli idi. Ortada uşaq var idi!”.

# Bacısı qızını övladlığa götürüb

***Aktrisa Zümrüd Qasımova bacısı qızını övladlığa götürüb.***

Sənətçi bu haqda özü yazıb. ”Özgə övlad olmur. Bacımın mənə verdiyi qızı. Öz övladım olsaydı Gülkanı az sevərdim. Elə yaxşı ki, Gülkam var. O mənə yetər” deyə, Z.Qasımova bildirib.

Qeyd edək ki, aktrisa açıqlamalarından birində səhhəti ilə bağlı ana ola bilməyəcəyini açıqlamışdı.





# Gələn ilki büdcənin əsas prioritetləri - Bütün diqqətlər Qarabağa yönəlib

***2022-ci ildə dövlət büdcəsinin gəlirləri 26 407 milyon manat məbləğində proqnozlaşdırılır ki, bu da ÜDM-in 32,5%-ini təşkil edəcək.***

Ötən gün açıqlanan rəsmi məlumata görə, 2022-ci ildə dövlət büdcəsinin kəsirinin 2021-ci ilin təsdiq edilmiş göstəricisindən17,6% az olmaqla 2 567 milyon manat olacağı proqnozlaşdırılır. Bu da ÜDM-in 3,2%-ni təşkil edəcək.

Kəsir vahid xəzinə hesabının qalığı (45,2%), daxili və xarici borclanma (27,3%), layihə maliyyələşdirilməsi əsasında cəlb edilən kreditlər (23,1%) və özəlləşmədən daxilolmalar (4,4%) hesabına maliyyələşdiriləcək.

Proqnozlaşdırılan dövlət büdcəsi Azərbaycana nə vəd edir?

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov Modern.az-a bildirib ki, gələn il üçün nəzərdə tutulan vəsaitin əsas hissəsi Qarabağın yenidən dirçəldilməsi ilə bağlıdır:

"Elan olunan büdcə hələ ki təsdiq olunmayıb. Rəqəmlər öncədən hazırlanan proqnozdur. Elan olunan proqnozlara baxdıqda düşünürəm ki, hər şey normaldır. İnflyasiya 4% göstərilir. Əsas vəsaitin xərclənməsi Qarabağ və müdafiə ilə bağlıdır. Hətta xərclər daha da atacaq. Çünki Qarabağda çox ciddi yenidənqurma işləri aparılır".

Deputat qeyd edib ki, 2022-ci il dövlət büdcəsi üçün əsas prioritet təhlükəsizlik və müdafiə məsələsidir... "Dövlət başçısının rəhbərliyi altında gedən sürətli işlər nəticəsində Füzuli aeroportu vaxtından əvvəl istifadəyə hazırlandı. Əsas nəzərdə tutulan Qarabağa xərclənən vəsaitdir. Bu da kifayət qədər vəsait deməkdir. Azərbaycanın indi əsas məsələsi təhlükəsizlik və müdafiə məsələsidir. Bu iki məsələ düşünürəm ki, 2022-ci il dövlət büdcəsi üçün əsas prioritetlərdən olacaq".

# Azərbaycanın Əfqanıstanla bağlı mövqeyi necə olacaq? - AÇIQLAMA



***"Taliban" hərəkatının Əfqanıstanda hakimiyyəti ələ alması dünya gündəminin aktual mövzusu olaraq qalır. Artıq əksər ölkələr "Taliban"ın rəhbərliyini tanıdığını elan edib, digərlər isə Kabildəki prosesləri izləyərək, qərarını açıqlamağa tələsmir.***

Bu gün Azərbaycanın Əfqanıstanla bağlı siyasətinin necə olacağı da sual doğurur. Rəsmi Bakının mövqeyi nədən ibarətdir?

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Əfqanıstandakı vəziyyətin siyasi nəticələrini Modern.az-a şərh edib.

Komitə sədri əvvəlcə bildirib ki, dünyada gedən ümumi bəşəri siyasət dəyişir:

"Ən əsası ölkələrə hər hansı kənar müdaxilələr artıq siyasət kimi, üslub kimi iflasa uğrayıb. Bunu Liviya, İraq, Əfqanıstan nümunəsində əyani şəkildə gördük. Hər hansı formada xaricdən olan müdaxilələr yerli psixologiyanı, insanların mövqeyini, dinini, düşüncə və adətini nəzərə almırsa, nəticə verə bilməz.

Əfqanıstanda korrupsiyanın acınacaqlı həddə olmasından istifadə edən təşkilatlar var. Əfqanıstan prezidenti külli miqdarda pulla ölkədən qaçdı. Tam korrupsiyaya uğramış rejim belə nəticə ilə rastlaşmalı idi.

Sual olunur, korrupsiyaya batmış, lakin alyans tərəfindən dəstəklənən rejim bu işlərlə təkbaşına məşğul idi? Görmürdülər ki, milyonlarla pul hara gedir? Həmin milyonlar əfqan xalqına çatmırdı. Mən Əfqanıstan hadisələrini "Taliban"ın qalibiyyəti kimi deyil, əfqan xalqının korrupsiyaya uğrayan daxili və xarici strukturlara etirazı, "Taliban"a göz yumması kimi qiymətləndirirəm. Hər hansı xarici müdaxilə ölkələrin inkişafı üçün deyil, müdaxilə edən qüvvələrin varlanmasını ehtiva edir".

Səməd Seyidov onu da vurğulayıb ki, Azərbaycan Əfqanıstanla bundan sonrakı əlaqələrini beynəlxalq qanun çərçivəsində quracaq:

"Başqa yolu yoxdur. Xüsusilə Azərbaycan kimi ölkələr üçün qanun beynəlxalq səviyyədə hansını qəbul edirsə, biz də bu istiqamətdə gedəcəyik".

# Elman Rüstəmov yenidən tənqid hədəfində

## Problemli kreditlər həqiqətən azalmışdımı, yoxsa...

***Azərbaycanda vaxtı keçmiş kreditlər mövzusu yenidən aktuallaşıb. Bu da təsadüfi deyil. Məsələ ondadır ki, sözügedən kreditlərin məbləği bu ilin avqustun 1-nə 937,5 milyon manat təşkil edib.***

Mərkəzi Bankın məlumatına görə, həmin məbləğ iyul ayı ilə müqayisədə 2,5 % çox, ilin əvvəlinə nisbətən isə 5 % çoxdur.

Vəziyyətin bu cür davam etməsi nəyə səbəb ola bilər və çıxış yolu nədir?

Mövzunu şərh edən iqtisadçı-ekspertlərin fikrincə, pandemiya dönəmində kiçik və orta sahibkarlar, həm də vətəndaşlara verilən kredit borclarına görə böyük dəstək paketi təəssüf ki, qəbul olunmayıb. Belə ki, ötən ilin aprelində kommersiya krediti alan kiçik və orta sahibkarlar üçün faizlərin yarıbayarı hesablanması ilə bağlı bir proqram açıqlandı. Lakin bu yetərli olmadı. Pandemiya dönəminin fəsadlarının vurduğu ziyanı nəzərə alsaq, problemli kreditlərin artması gözlənilən idi.



İqtisadçı Natiq Cəfərlinin sözlərinə görə, problemli kreditlərin sayının artması ilə bağlı mənfi tendensiyanın davam etməsinə təəccüblənməmək lazımdır. Çünki istehlak kreditləri artdıqca, problemli kreditlər də artacaq. Sitat: "İnsanlar işsizlik, sosial problemlərini istehlak kreditləri ilə həll etməyə çalışırlar. Lakin verilən bu kreditlərin faizləri yüksək olduğu üçün sonradan onların geri qaytarılması ilə bağlı problemlər yaşanır. İşsizliklə bağlı problemlərin olmasını, gəlirlərin aşağı düşməsini nəzərə alaraq rəsmi rəqəmlərə əsasən deyə bilərik ki, Azərbaycanda nominal gəlirlər belə azalıb".

Elə bu səbəbdən də problemli kredit məsələsi kifayət qədər yüksək sürətlə böyüyür. Rəsmi rəqəmlərə görə, problemli kreditlərin həcmi ümumi kredit portfelinin 7 faizinə yaxınlaşır ki, bu da kifayət qədər böyük və təhlükəli həddir. Dünyada qəbul olunmuş praktikaya görə, problemli kreditlər ümumi kredit portfelinin maksimum 3 faizi civarında ola bilər. Bizdə isə bu rəqəm iki dəfə artıb.

Ekspertlər həyəcan siqnalı çalırlar ki, indiki tendensiya davam edərsə, problemli kreditlər ümumi kredit portfelinin 8-9 faizini də təşkil edə, bu da kifayət qədər ciddi rəqəm olaraq Azərbaycan bank sektorunda stress yarada bilər.

Bəs çıxış yolu, yaxud yolları nə(lər)dir?

Bir neçə il öncə baş verən iki devalvasiya zamanı dəymiş zərərə görə problemli kreditlərin bir hissəsi silinmişdi. Hazırda buna bənzər hansısa addım atılacağını proqnozlaşdırmayan ekspertlərin qənaətinə görə, istənilən halda hansısa dəstək paketlərinin qəbulu daha doğrudur. Çünki vəziyyətin bu cür gedişatı Azərbaycan iqtisadiyyatına və bank sektoruna daha çox ziyan vuracaq. "Ziyanın yarısından da qayıtmaq xeyirdir" məsəlinə uyğun olaraq dövlətin Mərkəzi Bank, yaxud da özəl banklarla birgə hansısa təşviq proqramlarına, müəyyən təxirəsalma addımlarına, faizlərin hesablanmasının dayandırılmasına və dəstək addımlarının atılmasına ehtiyac var. Eyni zamanda bəzi ekspertlər problemli kreditlərlə bağlı ilginc nüansa diqqət çəkirlər. Onlar təxminən iki il öncə Mərkəzi Bank rəhbəri Elman Rüstəmovun belə kreditlərin həcminin azaldığı barədə açıqlamalarını xatırladır və qeyd edirlər ki, əslində həmin vaxt bu açıqlamalar reallığı əks etdirmirdi. Hələ o zaman qeyd olunurdu ki, reallıqda problemli kreditlərin həcmi Mərkəzi Bankın statistikası ilə müqayisədə xeyli, bəlkə də dəfələrlə çoxdur. "Bu, həmişə də belə olub, yəni ki, Elman Rüstəmovun idarəsi bilərəkdən sözügedən göstəricini az miqdarda təqdim edib. Hansı ki, Mərkəzi Bank hamıdan yaxşı bilir ki, banklar problemli kreditlərlə bağlı real vəziyyəti gizlədirlər" - deyə mütəxəssislər vurğulayırdılar.

Belə çıxır ki, hazırda vəziyyət o həddə çatıb ki, ölkənin baş bankı reallığı gizlədə bilmir, yəni problemli kreditlər bank sektoru üçün yenidən əndişəverici həddə yaxınlaşmaqdadır. Bundan başqa, 2019-cu ilin fevralında ölkə başçısı problemli kreditlər məsələsinin həlli ilə bağlı fərman imzalamışdı. Həmin fərman vətəndaşların banklardakı 10.000 ABŞ dollarınadək problemli kreditlərinin qapanması üçün dövlət büdcəsindən 700 milyon manata yaxın vəsait ayrılmasını nəzərdə tuturdu. Həmçinin, banklara 682 milyon manat məbləğinədək dövlət zəmanəti ilə güzəştli kredit verilməsi, bankların valyuta mövqeyinin pisləşməsinin qarşısını almaq məqsədilə ayrılan kreditin hesabına onların müraciəti əsasında 215 milyon ABŞ dolları dəyərinədək xarici valyutada ifadə olunmuş, illik faiz dərəcəsi 0,5 faiz olmaqla qiymətli kağızlar verilməsi nəzərdə tuturdu. Lakin problemli kreditlər məsələsinin həllinə külli miqdarda vəsait ayrılsa da, iki il sonra bu sahədəki vəziyyətin yenidən gərginləşməyə başlaması haqlı olaraq Mərkəzi Bank və onun rəhbərliyini yenidən tənqid hədəfinə çevirdi. Çünki görünən odur ki, baş bank problemli kreditlər problemini gündəmdən çıxarmaq üçün daha doğru strategiya müəyyənləşdirməkdə çətinlik çəkir...

***Hüseyn İsgəndərov***

# Ermənistan rəhbərliyinin yeni imitasiya oyunu

## Paşinyan razılaşmanın tələblərindən yayınmağa çalışsa da, Azərbaycan öz istəyinə nail olacaq



***Ermənistanın baş naziri Nikol Paşinyan 44 günlük Vətən Müharibəsindəki fiaskosundan sonra başlatdığı siyasi oyunlarını davam etdirir.***

Ermənistan mətbuatının yazdığına görə, baş nazir aldadıcı oyunlarının növbəti mərhələsinə start verib. “Unikal” Ermənistanın “Past” qəzetinə istinadən xəbər verir ki, baş nazir əvvəllər tənqid etdiyi “Madrid prinsipləri”ni yenidən gündəmə gətirməyi planlaşdırır. “Hakimiyyətə gəlməzdən qabaq da, hakimiyyət illərində də Paşinyanın komandası 2007-ci ildən masada olan “Madrid prinsip”lərini kəskin tənqid edirdi. Onlar Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında bu prinsipləri ən pis variant sayırdılar. Amma müharibədən sonra indi bu prinsiplər Paşinyan üçün münasib olub”- deyə qəzet yazır. Paşinyanın “Madrid prinsipləri”ni Qarabağ məsələsində əsas müzakirə mövzusu etməklə, uğradığı hərbi-siyasi fiaskonun nəticələrini yumşaltmağa çalışdığını yazan qəzet münaqişənin sonlandığını elan edən rəsmi Bakının “Madrid prinsipləri”ni rədd edəcəyinə əminlik ifadə edib.

Milli Məclisin deputatı Aqil Abbas, Ermənistanın baş naziri Nikol Paşinyanın Zəngəzur dəhlizinə alternativ axtarmaq və ya sözügedən prosesi ləngitmək addımlarına cavabında bildirib ki, onun bu cür cəhdləri heç bir nəticə verməyəcək. Onun sözlərinə görə, Paşinyan istəyir İrana-Turana, istərsə də Amerikaya getsin, nə etsə də xeyri yoxdur: “Zəngəzur dəhlizi açılacaq. Kommunikasiya xətlərinin açılması 10 noyabr üçtərəfli birgə bəyanatında da qeyd edilib. Ya siyasi yolla, ya da digər yollarla bu dəhliz açılacaq”.

Millət vəkili onu da qeyd edib ki, Zəngəzur dəhlizinin açılması üçün müxtəlif yollar var ki, Azərbaycan bunlardan istifadə etməyə qadirdir və dəhlizin açılması yönündə narahat olmağa ehtiyac yoxdur: ”Digər yollar isə güc yolu və Laçın dəhlizinin bağlanması yoludur. Biz Laçın dəhlizini bağlasaq, onlar da məcbur olub ya öz dəhlizini bağlayacaq, ya da Zəngəzur dəhlizini açacaq. Buna görə narahat olmağa dəyməz”.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü, deputat Vüqar İskəndərov Ermənistanın Baş naziri Nikol Paşinyanın ötən gün keçirdiyi hökümət iclasında irəli sürdüyü fikirləri şərh edib. O bildirib ki, Ermənistanın Baş naziri Nikol Paşinyan bu vəzifəyə gəldiyi gündən qeyri-ciddi siyasətçi imici formalaşdırdı: “Ümumiyyətlə, biz bu dövlətin həmişə dedikləri ilə əməlləri arasında böyük fərqin olduğunun şahidiyik. Həm Paşinyan, həm Sarkisyan, həm də Koçaryan fəaliyyətləri ilə dəfələrlə göstəriblər ki, onları Ermənistan əhalisinin maraqları yox, özlərinin varlanmağı, korrupsiyaya bulaşmaqları, xaricdən gələn pulları mənimsəmək və bölgədə seperatçılıq fəaliyyətlərini gücləndirmək və s. maraqlandırır”.

O, qeyd edib ki, hətta onları dəstəkləyən ölkələr də mütəmadi olaraq başqa tədbirlərdə, beynəlxalq məclislərdə, platformalarda dolayı yolla da olsa Ermənistanın təcavüzkar fəaliyyətindən bəhs ediblər: “Belə ki, onlar Azərbaycanın haqlı olduğunu, həmin torpaqların qanuni olaraq Azərbaycana məxsus olduğunu bildiriblər. Hətta ermənilərdən böyük ermənilik edən Fransa Prezidenti Emmanuel Makron da Fransada erməni icması ilə görüşəndə özü söyləmişdi ki, faktiki və qanuni olaraq Qarabağ Azərbaycanın ərazisidir. Yəni Ermənistan siyasətçiləri bunu gözəl bilsələr də, onlar işğalçılıq siyasətini həyata keçirsələr də anlayıblar ki, bu torpaqlar onlara məxsus deyil və gec-tez bu torpağın sahibləri qayıdacaq. Cənab Prezidentin dediyi kimi: “Biz qayıtmışıq”. Ali Baş Komandanın rəhbərliyi altında igid və şanlı Azərbaycan Orudusu 44 gün ərzində təkcə mənfur qonşu Ermənistana yox, bütün dünya ermənilərinə dərs verdi və göstərdi ki, başqasının torpağına göz dikənin gözü belə ovulur”.

Millət vəkili qeyd edib ki, qısacası, Paşinyanın söylədiyi fikirlər öz beyninin məhsulu deyil, başqa ölkələrin maraqlarını təmin etmək və onların fikirlərini çatdırmaqdır: “Elə bu günlərdə Ermənistan parlamentində çıxış edən Paşinyan həm Türkiyə ilə münasibətlərin normallaşdırılmasında, həm də Azərbaycanla sərhəddə delimitasiya və demarkasiya məsələlərinin həll edilməsində maraqlı olduğunu bildirib. Belə fikirlərdən sonra biz onun yüz səksən dərəcə əksi olan digər fikirlərinin şahidi olmuşuq. Bu da onu göstərir ki, o, olduqca qeyri-ciddi siyasətçidir, adekvat deyil, danışdıqları ilə əməllərinin arasında uçurum var. Bu gün Azərbaycan öz sərhədlərini mühafizə edir. Ərazimizdə müvəqqəti yerləşən sülhməramlıların fəaliyyəti də var. Biz hələ də görürük ki, Ermənistanın qanunsuz silahlı tör-töküntüləri bizim ərazilərdə öz mövcudluğunu qoruyub saxlayırlar. Rusiya, Azərbaycan və Ermənistan arasındakı üçtərəfli razılaşmaya əsasən, bu tör-töküntülər Azərbaycan torpaqlarından getməli idi. Biz hələ ki, bunun şahidi olmuruq. Laçın dəhlizindən şübhəli avtomobillərin gəlib-getdiyinin şahidi oluruq. Həm cənab Prezident İlham Əliyev, həm də Müdafiə naziri Zakir Həsənov bildirib ki, bunlar yığışdırılmalıdır, çünki Azərbaycan öz ərazilərində anti-terror əməliyyatları keçirmək hüququnu özündə saxlayır. Ona görə də Paşinyanın nə deyib-deməməsindən asılı olmayaraq, zamanı gəldikdə erməni banditləri ərazilərimizi tərk etməsələr, onların axırını 44 günlük müharibədə gördükləri aqibət gözləyir”.

***Z.Məmmədli***



## Ceyhun Bayramov Türk Şurasının Baş katibi ilə görüşüb

***9 sentyabr 2021-ci il tarixində xarici işlər naziri Ceyhun Bayramovun Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Baş katibi Bağdad Amreyevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

XİN-dən “Unikal”a verilən xəbərə görə, tərəflər Türk Şurasının gündəliyində duran geniş spektrli məsələlər, qarşıdan gələn tədbirlər, xüsusilə də cari ildə İstanbulda keçiriləcək Zirvə görüşünə hazırlıq məsələlərini ətraflı müzakirə ediblər.

Bakıda keçiriləcək Türk Şurası ölkələrinin iqtisadiyyat nazirlərinin görüşü və Biznes Forumunun gündəliyi barədə məlumat verən baş katib, həmçinin TŞ-nin iqtisadi sahədə əməkdaşlığın möhkəmləndirilməsi sahəsində görülən tədbirlərdən danışıb. Bağdad Amreyev bütün iştirakçı dövlətlərdən şirkətlərin Azərbaycanın azad olunmuş ərazilərinin bərpası prosesində iştirakda maraqlı olduqlarını qeyd edib və çoxsaylı iş adamlarının Bakıda keçiriləcək Biznes Foruma qatıldıqlarını vurğulayıb.

Nazir Ceyhun Bayramov TŞ-nin Bakıda baş tutacaq iqtisadiyyat nazirlərinin görüşü və Biznes Forumuna uğurlar arzulayıb. Azərbaycanın TŞ çərçivəsində əməkdaşlığa yüksək önəm verdiyi, təşkilatın fəaliyyətinin tərəfimizdən hər zaman dəstəkləndiyi vurğulanıb.

Tərəflər, habelə qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

## Azərbaycan II MDB Oyunlarına namizədliyini irəli sürdü

***Azərbaycan MDB ölkələrinin II Oyunlarına namizədliyini rəsmən irəli sürüb.***

“Unikal” xəbər verir ki, bu barədə MDB-yə üzv ölkələrin Bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığa dair Şurasının iclasında Gənclər və İdman Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Namiq Novruzov açıqlama verib.

N.Novruzov son zamanlar Azərbaycanda idmanın inkişafına və idman infrastrukturlarının yaradılmasına böyük diqqətin yetirildiyi, ölkədə böyük idman yarışlarının təşkil edildiyini diqqətə çatdırıb. O, II MDB Oyunlarını da təşkil etməyə hazır olduqlarını vurğulayıb.

Toplantıda Belarus nümayəndəsi də növbəti Oyunlar üçün namizədliyini irəli sürüb.

Təşkilatçı ölkənin MDB İcraiyyə Komitəsinin dekabrda keçiriləcək iclasında seçiləcəyi, yarış proqramının yaxın vaxtlarda müəyyənləşəcəyi və növbəti Oyunların 2023-cü ildə təşkil olunacağı diqqətə çatdırılıb.

## Füzulidə daha bir erməni hərbçisinin meyiti tapılıb

***44 günlük müharibə zamanı itkin düşmüş daha bir erməni hərbçinin meyitinin qalıqları tapılıb.***

Bu barədə “Unikal” Ermənistan mətbuatına istinadən xəbər verir.

Qeyd edilir ki, hərbi qulluqçunun meyitinin qalıqları Füzuli istiqamətində aşkarlanıb. Meyitin şəxsiyyətinin müəyyənləşdirilməsi ilə bağlı məhkəmə-tibb ekspertizası təyin edilib.

Bununla da Qarabağda aşkarlanan erməni meyitlərinin sayı 1 660-a çatıb.

# Prezidentdən Bakıda yolların təmiri ilə bağlı SƏRƏNCAM



***Prezident İlham Əliyev Bakı şəhərinin Binəqədi rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

Unikal.org xəbər verir ki, sərəncama əsasən, Bakı şəhəri Binəqədi rayonunun Binəqədi, M.Ə.Rəsulzadə və Sulutəpə qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 3,7 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılır.

# İlham Əliyev Estoniyanın yeni seçilmiş Prezidentini təbrik etdi

***Preizdent İlham Əliyev Estoniya Respublikasının yeni seçilmiş Prezidenti Alar Karisə təbrik məktubu ünvanlayıb.***

"Unikal"xəbər verir ki, təbrik mətnində deyilir:

"Hörmətli cənab Karis, Estoniya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Estoniya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Estoniya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm".

# Bakıya göndərilən türk generallar

**Avqustun 25-də Türkiyə Yüksək Hərbi Şuranın toplantısı keçirilib.**

Unikal.org xəbər verir ki, həmin toplantıda Bakıda Türkiyə Silahlı Qüvvələrini təmsil edəcək generalların adları bəlli olub.

Qərarla Azərbaycanda Xidmət Qrupu Komandanlığına 4 general təyin edilib.

Türkiyə Quru Qoşunlarının əməliyyat üzrə rəisi, general-mayor Bəxtiyar Ersay Azərbaycanda Xidmət Qrupu Komandanlığına təyin edilməklə Türkiyə Baş Qərargahının əmrinə verilib.

General Abdulla Qatırçı da Azərbaycan Xidmət Qrupu Komandanlığının Birgə Mərkəz Komandanlığına təyin edilməklə Egey Ordu Komandanlığına təyinat alıb.

General Ender Güner Azərbaycan Xidmət Qrupu Komandanlığın qərargah rəisi təyin edilib.

Bununla yanaşı Türkiyə Silahlı Qüvvələrinin Bakıdakı hərbi atteşesi də dəyişib. Yeni hərbi atteşe general Zəkəriyyə Yalçın təyin olunub.

# Partiya sədrlərini Prezident Administrasiyasına topladılar

***Sentyabrın 9-da Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi ölkədə fəaliyyət göstərən 45 siyasi partiyanın rəhbərləri ilə "Siyasi partiyalar: Zəfər, yeni reallıq və dialoq" mövzusunda görüş keçirib.***

Unikal.org xəbər verir ki, tədbiri giriş sözü ilə açan Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev görüşdə iştirak edən siyasi partiya rəhbərlərini Prezident İlham Əliyevin adından salamlayıb, onlara ölkədə milli həmrəylik, siyasi dialoq mühitinin təşviqinə xidmət edən müxtəlif səpkili layihələrdə fəal iştirak etdiklərinə görə təşəkkürünü bildirib.

Ədalət Vəliyev qeyd edib ki, bu gün Azərbaycan çoxəsrlik tarixinin ən şərəfli dövrünü yaşayır, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib dövlət və qalib xalq olmağımızla Azərbaycan dövlətçiliyi tarixində mahiyyət etibarilə tamamilə yeni inkişaf mərhələsi başlayıb. Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın müddət ərzində davam edən təcavüz və işğal siyasətinə son qoyulub.

Ölkədə cərəyan edən siyasi proseslər barədə danışan Ədalət Vəliyev Prezident İlham Əliyevin sistemli və çoxşaxəli inzibati-siyasi islahatlarının nəticəsində sağlam iqtidar-müxalifət dialoqunun, yeni siyasi konfiqurasiyanın qurulduğunu, siyasi partiyalarla işin yenidən təşkil edildiyini diqqətə çatdırıb. O, dövlətimizin başçısının tapşırığı əsasında siyasi partiya rəhbərləri ilə çoxsaylı görüşlər keçirildiyini və hər bir görüşün nəticələrinin təhlil olunaraq irəli sürülən təkliflərin öyrənildiyini, müvafiq addımların atıldığını deyib. Həmçinin bildirilib ki, "Siyasi partiyalar haqqında" yeni qanunun layihəsinə dair siyasi partiyalar tərəfindən təqdim olunmuş təkliflər müzakirə edilir.

İqtidar-müxalifət dialoqunun əhəmiyyətini vurğulayan şöbə müdiri qərargahı olmayan 22 siyasi partiya üçün ofislər ayrılması, vaxtı ötürülmüş qurultaylarının keçirilməsi üçün bir sıra siyasi partiyaların yerlə təmin olunması üçün tədbirlər görülməsi və 25 siyasi partiyanın qurultaylarının keçirilərək nəticələrinin dövlət qeydiyyatına alınması, habelə uzun fasilə-



dən sonra 7 yeni siyasi partiyanın dövlət qeydiyyatına alınması barədə məlumat verib. Həmçinin qeyd olunub ki, iqtidar-müxalifət dialoqu nəticəsində cəmiyyətdə yeni yanaşma müşahidə olunmaqdadır və siyasi partiyaların respublikanın ictimai-siyasi həyatında daha yaxından iştirakının təmin edilməsi məqsədilə siyasi partiya liderləri müxtəlif mətbuat orqanlarında və televiziya kanallarında çıxış etmək üçün dəvət olunurlar.

Ədalət Vəliyev siyasi partiyaların mütləq əksəriyyətinin xarici təhdidlərə qarşı birlik nümayiş etdirdiyini, 8 birgə bəyanat və 2 birgə müraciət imzalandığını xatırladaraq Vətən müharibəsi zamanı bu milli həmrəyliyin bütün dünyaya Azərbaycan xalqının ümummilli məsələlərdə hər zaman birləşməyə hazır olduğunu göstərdiyini xüsusi qeyd edib.

Şöbə müdiri ölkədə koronavirus pandemiyasına qarşı aparılan məqsədyönlü mübarizə tədbirlərindən söz açaraq, siyasi partiya rəhbərlərinin və nümayəndələrinin vaksinasiya olunduqlarını, habelə onların koronavirusdan yeganə xilas yolu kimi əhalini vaksinasiyada fəal iştirak etməyə çağırdıqlarını da bildirib.

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq ölkədə milli həmrəylik və sağlam siyasi münasibətlərə köklənmiş siyasi dialoqun qurulması istiqamətində əldə olunmuş uğurların bundan sonra da davam etdiriləcəyini qeyd edən Ədalət Vəliyev diqqətə çatdırıb ki, Azərbaycanda çoxpartiyalılığın inkişafına yönəlmiş addımlar ali siyasi iradənin təzahürüdür və iqtidar hər hansı amilə görə ayrı-seçkilik qoymadan bütün siyasi partiyalar ilə dialoqa və əməkdaşlığa hazır olduğunu bəyan edib.

Ədalət Vəliyev 2021-ci il martın 17-də siyasi partiya rəhbərlərinin Ağdama təşkil olunmuş və böyük rəmzi məna daşıyan, milli həmrəyliyi nümayiş etdirən birgə səfəri haqqında da danışaraq, səfərdə iştirak etməyən bəzi şəxslər tərəfindən səfərlə bağlı edilmiş siyasi spekulyasiyaların təəssüf doğurduğunu söyləyib.

Çıxışının sonunda Ədalət Vəliyev postmüharibə dövründə müxtəlif informasiya təxribatlarına qarşı hazır olmağın vacibliyini tədbir iştirakçılarının nəzərinə çatdırıb, hər kəsi düşmənə qarşı mübarizədə daha da sərt mövqe tutmağa və milli məsələlər ətrafında hər zaman birlik nümayiş etdirməyə çağırıb.

Sonra Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayev, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn, Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu, Azərbaycan Ümid Partiyasının sədri İqbal Ağazadə, Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Fəttayev, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər, REAL Partiyasının sədri İlqar Məmmədov, Azərbaycan Sosial Rifah Partiyasının sədri Əsli Kazımova, Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli, Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov, Azərbaycan Liberal Demokrat Partiyasının sədri Fuad Əliyev, Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu və Yeni Azərbaycan Partiyası sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov çıxış ediblər.

Çıxışlarda ölkədə davamlı sabitliyin qorunması və dövlətin inkişafı naminə bütün imkanların səfərbər olunmasında siyasi dialoq mühitinin əhəmiyyəti vurğulanıb, bu istiqamətdə sağlam əməkdaşlığın davam etdirilməsinə hazırlıq ifadə olunub. Qeyd edilib ki, qısa müddət ərzində əldə olunmuş uğurlu əməkdaşlıq nümunələrinin sayı artırılmalı, dayanaqlı dialoq ənənələri daha da dərinləşdirilməli, bütün səylər ölkənin inkişafı və xalqın rifahına yönəldilməlidir.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# XİN Tacikistanı təbrik etdi

***Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Tacikistanı Müstəqillik Günü münasibətilə təbrik edib.***

"Unikal" xəbər verir ki, bu barədə XİN-in tviter səhifəsində məlumat verilib. "Müstəqilliyinin 30-cu ildönümündə Tacikistanı səmimi-qəlbdən təbrik edirik və bu əlamətdar gündə uğur və rifah üçün ən xoş arzularımızı çatdırırıq. Müstəqillik Günün mübarək, Tacikistan!", - məlumatda qeyd edilib.

# Qarabağdakı rus sülhməramlıların komandanı o təyin olundu

***General-mayor Mixail Kosobokov Azərbaycanın Qarabağ bölgəsindəki Rusiya sülhməramlı kontingentinin komandiri vəzifəsinə təyin olunub.***

"Unikal" xəbər verir ki, bu barədə məlumatı "Sputnik Ermənistan" yayıb.

Məlumata əsasən, Ermənistanın müdafiə naziri Arşak Karapetyan rus sülhməramlıların yeni komandiri Mixail Kosobokov ilə görüşüb. Həmçinin qeyd olunub ki, Rusiyanın Ermənistandakı 102 saylı hərbi bazasının komandiri polkovnik Dmitri Ovçarov da görüşdə iştirak edib.

Qeyd edək ki, bir neçə gün əvvəl Mixail Kosobokovun adı Rusiya sülhməramlı kontingentinin komandiri vəzifəsinə əsas namizəd olaraq hallanırdı. Mixail Kosobokov əvvəllər Cənub Hərbi Dairəsinin 58-ci ümumqoşun ordusunun komandirinin müavini vəzifəsində çalışıb. O, həmçinin Abxaziyadakı Rusiya hərbi bazasına da rəhbərlik edib.

Xatırladaq ki, hələ may ayında rotasiya qaydalarına əsasən, Rüstəm Muradovu Cənub Hərbi Dairəsinin komandir müavini Aleksey Avdeyevin əvəz edəcəyi deyilirdi. Lakin Azərbaycan-Ermənis-



tan sərhədindəki gərginliyə görə, Muradov o zaman öz vəzifəsində qalmışdı.

# Hesablama Palatası AMEA-da maliyyə maxinasiyaları aşkarladı

## Materiallar toplanaraq araşdırma aparılması üçün Baş Prokurorluğa göndərildi

***Sürətli texnoloji inkişaf bu inkişafın dəstəklənməsi üçün nanoelektronika, optoelektronika, nüvə fizikası və yüksək enerjilər fizikası sahəsində elmi-fundamental araşdırmaların əhəmiyyətini günbəgün yüksəldir.***

"Unikal" xəbər verir ki, bu barədə Hesablama Palatasının Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fizika İnstitutu apardığı yoxlamalarla bağlı yaydığı açıqlamada bildirilir. Qurum bəyan edib ki, İnstitut müasir texnologiyaların əsasını təşkil edən yarımkeçiricilər və bərk cisimlər fizikası, nanoelektronika və hesablama sistemləri, elektromaqnit dalğa mənbələri və qəbuledici sistemlər, nüvə fizikası sahəsində tədqiqatlar aparmaqdadır. Hər il dövlət büdcəsindən həmin institutun saxlanılması və elmi tədqiqatların maliyyələşdirilməsi məqsədilə funksional təsnifatın müvafiq köməkçi bölməsindən vəsait nəzərdə tutularaq icra edilir.



Audit prosesində tətbiq edilmiş prosedurlar İnstitutun dövlət vəsaitlərinin icrası vəziyyəti ilə bağlı aşağıdakıları qeyd etmək imkanı verib:

Dövlət büdcəsindən ayrılmış vəsaitlərin icra səviyyəsi yüksək olsa da, il ərzində dövlət vəsaitlərinin maliyyələşmə və icra məbləğləri arasında uyğunsuzluqlar müşahidə edilmiş, xərclərin icrası zamanı 6734,0 manat məbləğində vəsait qüvvədə olan vahid büdcə təsnifatının müəyyən etdiyi iqtisadi təsnifat kodu dəyişdirilməklə icra olunmuş;

Auditin əhatə etdiyi dövrdə çalışanların sayı və vəzifələri təsdiq olunmuş ştat cədvəlinə uyğun olsa da, ixtisas dərəcələrinə düzgün riayət edilməməsi səbəbindən 18045,0 manat, iş davamiyyəti qeydə alınmayan əməkdaşlara 329886,8 manat, yaranmış qənaət hesabına düzgün olmayaraq əlavələrin verilməsi səbəbindən 86592,55 manat, elmi proqram üzrə İnstitutun smetasında nəzərdə tutulmuş vəsaitlər hesabına yalnız əmək funksiyalarını yerinə yetirilən əməkdaşlara təkrar ödəniş aparılması nəticəsində 25800,0 manat məbləğində artıq vəsait ödənilmiş;

Ezamiyyə qaydalarına və xərc normalarına düzgün əməl edilməməsi səbəbindən xarici və ölkədaxili ezamiyyə ilə bağlı vəsaitlərin icrası zamanı 1304,0 manat məbləğində vəsaitin artıq ödənilməsinə yol verilmiş;

Dövlət satınalmalarının keçirilməsi zamanı yol verilmiş nöqsanlar satınalma prosesinin bütün mərhələlərini əhatə etmiş, bir sıra prosedur pozuntuları ilə yanaşı vəsaitlərin satınalma keçirilmədən icra olunmasına yol verilmiş;

Auditin əhatə etdiyi dövrdə həyata keçirilmiş kotirovkalar üzrə hüquqi aktlarla nəzərdə tutulmuş addımlar atılmayaraq müvafiq elanlar rəsmi internet səhifəsində yerləşdirilməmiş, ehtimal olunan qiymətlərin düzgün müəyyənləşdirilməməsi səbəbindən 30772,0 manat məbləğində artıq xərcə yol verilmiş;

vəsaitlərin icrası ilə bağlı hesabatlar tam tərtib edilməmiş, maliyyə hesabatlarının tərtibi zamanı təhriflərə yol verilmiş, o cümlədən maliyyə hesabatlarının tərtibi zamanı 01.01.2019-cu il tarixə 216600,3 manat, 01.01.2020-ci il tarixə 259643,9 manat və 31.12.2020-ci il tarixə 272993,9 manat dəyərində "Sair uzunmüddətli qeyri-maliyyə aktivləri" maddəsi üzrə qeyd olunan qalıq məbləğlər "Maliyyə vəziyyəti haqqında hesabat"ın "Sair uzunmüddətli qeyri-maliyyə aktivləri" maddəsi əvəzinə "Torpaq, tikili və avadanlıqlar və digər uzunmüddətli aktivlər" maddəsində əks etdirilmiş;

Kanalizasiya haqlarının ödənilməsinin faktiki tələbat əsasında deyil, tam məbləğdə ilin əvvəlində vəsaitin plastik kartlara tam köçürülməsi səbəbindən ilin sonuna 8500,0 manat qalıq məbləği formalaşmış;

İnventarizasiya komissiyaları yaradılsa da, nəticələrlə bağlı hesabatlar düzgün tərtib edilməmiş, laboratoriyalarda kimyəvi reaktivlərin 46740,0 manat məbləğində əsassız silgisi aparılmış;

Daxili nəzarət sisteminin nəzarət mühiti yaradılmamış, nəzarət fəaliyyəti qənaətbəxş olmamış, elementləri tam tətbiq edilməmişdir. Əldə edilmiş nəticələr əsasında tövsiyələr tərtib edilmişdir və fikrimizcə, bu tövsiyələrin reallaşdırılması dövlət vəsaitlərinin istifadəsi prosesində risklərin azaldılmasına, vəsaitlərin idarə olunmasında vəzifəli şəxslərin məsuliyyətinin artırılmasına xidmət edəcək.

Auditin nəticəsi olaraq, Hesabat tərtib edilənədək İnstitut tərəfindən 104616,0 manat məbləğində vəsait dövlət büdcəsinə bərpa edilmi?, həmçinin artıq hesablanmı? və kreditor borc kimi uçota alınmı? 387,7 manat məbləğində vəsait müxabirlə?mə verilərək azaldılmı?, vakant vəzifələr ixtisar edilmi?dir. Auditin nəticələri ilə bağlı məlumat qanunvericiliklə nəzərdə tutulduğu qaydada Milli Məclisə göndərilmiş, hesabat İnstituta, nəticələrlə bağlı məlumat isə AMEA-ya təqdim edilib.

Audit hesabatının AMEA-ya və İnstituta göndərilməsində məqsəd dövlət vəsaitlərin daha effektiv idarə olunması, icrası, mühasibat uçotunun düzgün təşkili, hesabatlılığın artırılması, rasional daxili nəzarət sisteminin qurulması ilə bağlı qərarların qəbul edilməsinə, yol verilmiş nöqsanların aradan qaldırılması üzrə fəaliyyətin təşkil olunmasına dəstək vermək, ştat saylarının optimallaşdırılması ilə bağlı tədbirlərin görülməsinə dəstək verməkdir. Aparılmış auditin nəticələri əsasında vəsaitlərin təyinatdan kənar istifadəsi, maliyyə hesabatlarının düzgün tərtib edilməməsi halları barədə Maliyyə Nazirliyinə məlumat təqdim edilib. Məlumatda magistr pilləsində təhsilin maliyyələşdirilməsi sahəsində vəsaitlərin depozit tapşırıqlar və hesablardan icra edilməsinin, ilin sonuna istifadə edilməmiş vəsaitlərin dövlət büdcəsinə qaytarılmaması ehtimalının mümkünlüyü və AMEA-da ştat saylarının optimallaşdırılması zəruriliyi diqqətə çatdırılıb. Maliyyə Nazirliyinə müraciətin məqsədi vəsaitlərin icrasına cari nəzarətin təşkili, maliyyə hesabatlarının tərtibi ilə bağlı zəruri addımların atılması sahəsində qərarların qəbul olunmasına yardımçı olmaqdır. Malların (işlərin və xidmətlərin) satınalma prosesində vəsaitlərin satınalma keçirilmədən icrası halları ilə bağlı inzibati xətanın müəyyən edilməsi məqsədilə Baş Prokurorluğa müraciət edilib.

***İnfornmasiya şöbəsi***

## Ramiz Mehdiyevin qohumu 1 milyonluq tender keçirdi

***Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) İşlər İdarəsi tərəfindən keçirilən tender müsabiqəsinin qalibi məlum olub.***

Unikal.org-un əldə etdiyi məlumata görə, tender müsabiqəsinin qalibi "Finacco" MMC olub. Qalib şirkətə 993 704 manat 54 qəpik ödəniləcək.

"Finacco" MMC AMEA İşlər İdarəsinin elmi müəssisə və təşkilatlarının yerləşdiyi bina və ərazilərdə təmir işlərini görəcək.

Qeyd edək ki, AMEA-nın İşlər İdarəsinin müdiri vəzifəsini Fikrət Əliyev icra edir. O, akademiyanın prezidenti Ramiz Mehdiyevin kürəkəni, sabiq millət vəkili İlham Əliyevin qardaşıdır.

***Murad İbrahimli***

## Baş nazir rusiyalı həmkarına başsağlığı verib

***Azərbaycanın Baş naziri Əli Əsədov Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustinə başsağlığı məktubu ünvanlayıb.***

Bu barədə "Unikal"a Nazirlər Kabinetindən məlumat verilib.

Baş nazir Rusiyanın fövqəladə hallar naziri Yevgeni Ziniçevin faciəli surətdə həlak olması xəbərindən kədərləndiyini bildirib, Rusiya Hökumətinin sədrinə, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verilib.

## Təhsil naziri əhaliyə ÇAĞIRIŞ ETDİ

***9 sentyabr tarixi Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 74/275 saylı qətnaməsinə əsasən Təhsilin Hücumlardan Beynəlxalq Müdafiəsi Günü kimi qeyd edilir.***

"Unikal"ın məlumatına görə, bu barədə Təhsil naziri Emin Əmrullayev şəxsi feysbuk hesabında paylaşım edib.

Nazir bildirib ki, Ermənistanın azərbaycanlı məktəblilərə qarşı törətdiyi müharibə cinayətləri nəticəsində uşaqların təhlükəsiz şəraitdə təhsil almaq hüququ məhdudlaşdırılmışdır: "Bu səbəbdən onlarla şagird həyatını itirmiş, yüzlərlə məktəb məhv edilmiş, yaxud qəzalı vəziyyətə düşmüşdür. Bütün dünya ictimaiyyəti törədilmiş bu vəhşiliklərə qarşı birlikdə səsini ucaltmalı, uşaqların təhlükəsiz gələcəyi üçün biganə qalmamalıdır. Təhsil Nazirliyi olaraq hər bir vətəndaşımızı #EducationUnderAttack və #UnitetoProtect heştəqləri altında ediləcək paylaşımlara dəstək olmağa çağırırıq".

## Nazirdən yeni tədris ili ilə bağlı ƏMR

***Fərdi təhsil üzrə nümunəvi tədris planı təsdiq edilib.***

Unikal.org xəbər verir ki, bununla bağlı təhsil naziri Emin Əmruallayev müvafiq əmr imzalayıb.

Əmrə əsasən, tədris planı üzrə ibtidai təhsil səviyyəsində dərslər həftədə 3, ümumi orta təhsil səviyyəsində 3-4 gün təşkil edilir. Dərs məşğələlərinin müddəti 45 dəqiqədir. Dərs saatı həftədə 0,5 saat olan fənlər dərs cədvəlində qeyd edilməklə həftəaşırı tədris olunur. İbtidai və ümumi orta təhsil səviyyələri üzrə tədris ili iki yarımilə bölünür:

birinci yarımil: 15 sentyabr - 26 yanvar;

ikinci yarımil: 1 fevral - 14 iyun.

Tədris ili ərzində aşağıdakı tətillər müəyyən olunur:

payız tətili: 16-20 noyabr (5 gün);

qış tətili: 27-31 yanvar (5 gün);

ibtidai siniflər üçün əlavə tətil: 1-5 may (5 gün).

Əmrin icrasına nəzarət nazir müavini Firudin Qurbanova həvalə olunub.

# “ReAL hakimiyyətə gələndə baş nazir olacam”

## Natiq Cəfərli: “Onsuz da həmişə İlqar Məmmədova deyirəm ki, inşallah, sən Prezident olandan sonra biz parlamentli respublika idarəçiliyinə keçəcəyik”



***Azərbaycanda siyasi səhnədə münasibətlər sistemində hər zaman problem olub. İstər iqtidar-müxalifət, istər müxalifət daxili münasibətlərdə dayanıqlı və sivil münasibətlər olmayıb. Bu istiqamətdə müəyyən səylər olsa da, ciddi nəticə yoxdur. “Unikal” qəzetinə müsahibə verən ReAL Partiyanın icra katibi Natiq Cəfərli ilə söhbətimiz də elə bu mövzu ətrafında oldu.***

***-Natiq bəy, hazırda Azərbaycanda siyasi düşərgədəki vəziyyəti, partiyalar arasındakı münasibətlər sistemini necə dəyərləndirirsiniz?***

-Bu, əslində, həm maraqlı, həm də bir az qəliz sualdır. Azərbaycanda bəyənsək də, bəyənməsək də, müstəqillikdən bəri uzun zamandır iqtidar-müxalifət təşkilatları arasında oturuşmuş bəlli siyasi münasibətlər formalaşıb. Çox təəssüf ki, ölkədə çox vaxt siyasi münasibətlər şəxslərin münasibəti üzərində qurulur. Söhbət iqtidar-müxalifət münasibətlərindən yox, elə müxalifətdaxili münasibətlərdə partiya sədrlərinin, siyasi liderlərin bir-birinə olan münasibətindən doğur. Və biz zaman-zaman bu münasibətlərin ya yaxşılaşmasının, ya da əksinə, korlanmasının və münaqişələrin olmasının şahidi olmuşuq. Yəni son 25-30 ilin siyasi müstəvisinə baxdıqda təəssüf ki, belə bir mənfi mənzərə canlanır. Bunu iqtidar-müxalifət münasibətlərinə də aid etmək olar. İqtidar-müxalifət münasibətləri də heç vaxt sağlam təməllər üzərində olmayıb, rəqabətli mühitə əsaslanmayıb.

***-Bu, münasibət hansı səbəbdən yaranıb?***

-Təbii ki, bunun böyük hissəsi hakimiyyət tərəfdəndir. Çünki çox vaxt siyasi senzura və siyasi basqılar tətbiq olunub. Amma müxalifətin də uzun illərdir problemi ondan ibarət olub ki, hakimiyyətin dediklərini təftiş etməklə yanaşı, alternativlərin yaradılmasında problemlər olub. Yəni, təkcə hansısa problemi söyləmək azdır. Həmin problemdən çıxış yollarını tapmaq, insanları buna inandırmaq da siyasi təşkilatların ən vacib fəaliyyət istiqaməti olmalıdır. Təəssüf ki, burada həmişə problemlər olub. Çox vaxt bu münasibətlər təhqir və tənqidlərdən o tərəfə keçməyib. Bunun da əsas səbəbi ideoloji partiyaların formalaşmamasıdır. Azərbaycanda siyasi palitraya baxdıqda demək olar ki, bizdə ideoloji partiyalar yoxdur, formalaşmayıb. Bütün partiyaların nizamnaməsi sanki, bir-birindən götürülüb. Yəni, əksəriyyəti özünü ən azı sənəd üzərində mərkəzçi sağ elan edib. Amma ya ritorik, ya da təklif olaraq elan etdikləri ideoloji platforma çərçivəsində olmayıblar. Bu, hakim partiyaya da aiddir. Çünki ölkədəki siyasi partiyaların və siyasi münasibətlərin keyfiyyət dəyişikliyində əsas rol oynaya biləcək qüvvə təbii ki, hakim partiyadır. Hakim partiyanın özünün ideologiyasının olmaması və partiya kimi fəaliyyət göstərməməsi qəbuledilməzdir. Partiyanın parlamentdə fraksiyası olmalıdır, yəni, Yeni Azərbaycan Partiyasının 70-ə yaxın deputatı var, amma öz fraksiyası yoxdur. Qanunvericilik təşəbbüsləri olmalıdır. Biz bu günə qədər qanunvericilik təşəbbüsünün YAP-dan gəldiyini görməmişik. Qanunvericilik təşəbbüslərinin təxminən 96 faizi Prezident Administrasiyasından gəlir. Partiyaların özlərinin bir ideoloji xətti, tezisləri və cəlbedici hekayələri olmalıdır. Təəssüf ki, bu da yoxdur.

***-Bəs müxalifət qüvvələrinin necə?***

-Bunu eyni qaydada müxalifət partiyalarına da aid etmək olar. Hansı ki, daha çox şəxs ətrafında yaranmış təşkilatlardır. Çox vaxt Azərbaycanın siyasi tarixinə baxdıqda görürük ki, partiya liderlərindən kimsə müxtəlif səbəblərdən partiyanı tərk etdikdə, həmin partiya zəifləyir. Yəni cəmi 15-20 il bundan əvvəl güclü partiyalar və onların güclü liderləri var idi. O liderlər partiyadan gedəndən sonra həmin partiyalar demək olar ki, siyasi gündəmdən də itib-batdılar. Çünki ideoloji əsaslarla formalaşmayan partiyalar bir şəxs ətrafında toplaşırsa, çox vaxt aqibəti belə olur.

***-Əslində, maraqlı məqama gəldiniz. Sizin partiya hansı prinsiplər əsasında formalaşıb və sizin partiyanı da eyni aqibət gözləyə bilərmi?***

-Bilirsiniz ki, bizim hərəkat kimliyimiz var. Yəni, partiya olmamışdan əvvəl uzun zaman hərəkat formasında fəaliyyət göstərmişik və bu formada fəaliyyət göstərərkən idarə heyətinin gücü, nüfuzu və qərarvermə mexanizmi sədrin nüfuzu, gücü və qərarvermə mexanizmindən həmişə artıq olub. Hətta hərəkat dövründə İlqar Məmmədov 5 il 8 ay həbsdə ola-ola bir çox təkliflər göndərirdi ki, onlar da səsvermədən keçmirdi. Bu da Azərbaycan siyasi təşkilatlar tarixində yəqin ki, nadir hadisələrdən biridir. Mən deməzdim ki, bu yeganə hadisədir, amma yəqin ki, nadir hadisələrdəndir. Bu gün də həmin ənənə davam edir. Yəni, kollektiv kimlik bu gün də davam edir. Yəni, digər siyasi partiyalardan fərqli olaraq, partiya sədri faktiki olaraq moderatordur. Amma səsverməyə gəldikdə, sədrin səsi digər idarə heyəti üzvlərinin səsi ilə eynidir. Bir çox hallarda bizdə qərarvermə mexanizmi elə qurulub ki, qərarların çoxu bir xətt üstünlüyü ilə keçir. Bir çox hallarda partiyanın idarə heyətində təmsil olunan səxslərin ideyası və istiqaməti eyni olsa da, həmin istiqamətlə bağlı gediləsi yollarda müxtəlif fikirlər olur. Bu da açıq şəkildi dartışılır. Ən yaxşı yolun seçilməsində də bunun çox böyük rolu olub.

Yəni, ReAl təkcə İlqar Məmmədovların, Natiq Cəfərlilərin, Erkin Qədirlilərin, Rəsul Cəfərovun partiyası deyil. Sabah biz bu partiyada olamayacağıq, amma bu partiyanın gənclər təşkilatı var ki, biz onların gələcəkdə partiyanın idarə olunmasında iştirak etməsi üçün institusional mexanizmlərin qurulmasına çalışırıq. Yəni, bizim ömrümüz boyu idarə sədri, idarə heyəti katibi və ya üzvü olaraq qalmaq fikrimiz yoxdur. Siyasət bir amala çatmaq üçün yola çevrilməlidir. Əgər ona nail ola bilirsənsə lap yaxşı, bilmirsənsə, başqa sahədə davam etməlisən. ReAlı digər partiyalardan fərqləndirən də məhz bu yanaşmalardır.

***-Digər partiyaların nümayəndələri də danışanda Sizin kimi deyirlər ki, partiyada qərarlar kollegial verilir, daxili demokratiya var və sair. Yəni, bütün partiyalarda belə bir görüntü var.***

-Razıyam. Bəli, o biri partiyalarda belə bir görüntü var. Amma faktiki olaraq, digər müxalifət partiyalarında daxili demokratiya yoxdur. Onların keçirdiyi qurultaylara diqqət edin. Onlara hakimiyyət müdaxilə eləmir ki, sədr seçkiləri alternativsiz keçir və illərdir, eyni adamlar rəhbərdir. Bunu çox nadir partiyalara şamil eləmək olmaz, amma əksəri belədir. Digər hallarda isə partiyanın ağsaqqalı kimi sədr olacağını əvvəlcədən müəyyənləşdirir, prosesə təsir edir. Bizdə qurultayda İdarə Heyətinə düşmək uğrunda mübarizə çox kəskin oldu. İdarə Heyətinin üzvləri digərlərindən bir-iki səslə seçilərək qalib oldular.

***-Siz özünüz də, partiyanız da gəncdir, yəqin ki, ReAlın necə olacağını gələcək göstərəcək?***

- Əlbəttə. Mən bir şeyi dəqiq deyə bilərəm ki, indiki İdarə Heyəti üzvləri qərar vermişik ki, siyasi karyeranın son mərhələsi var. Yəni, 2025-ci ilə qədər siyasi fəaliyyətimiz davam edəcək. Bu müddətə qədər siyasətdə ciddi uğur qazanacağıqsa, bu işi davam etdirəcəyik. Qazana bilməyəcəmsə, öz ixtisasım üzrə çalışmağa başlayacağam, dərs deyə, yenidən araşdırmalara başlaya bilərəm. Yəni, mənim başqa sahədə çalışmaq üçün kifayət qədər imkanlarım var. Sədrin də, mənim də, digər İdarə Heyət üzvlərinin də fikri elədir.

***-İlqar Məmmədov prezident olmaq iddiasındadır, bəs Sizin hədəfiniz nədir?***

-Bizim ilkin hədəfimiz parlament təmsilçiliyimizi çox yüksək səviyyəyə qaldırmaqdır. Hesab edirəm ki, parlament seçkiləri tez olacaq. Gələn il üçün erkən seçkilərin olması ehtimalı çox yüksəkdir. İlkin hədəf parlamentdə fraksiya yarada biləcək qədər təmsilçiliyə nail olmaqdır. Bu, artıq böyük bir siyasi qələbə olar. Növbəti addım təbii ki, Prezident seçkiləridir. Son qurultayın qərarına görə prezidentliyə namizədimiz İlqar Məmmədovdur. Nəticələr İlqar Məmmədovun gələcəkdə partiya sədri qalıb qalmayacağı üçün əsas göstərici olacaq.

***-İlqar Məmmədov prezident olacağı təqdirdə Natiq Cəfərlinin hansı post tutacağı bəllidirmi?***

-Biz İdarə Heyətində bu barədə tez-tez danışırıq. Biz tək müxalifət olmağı deyil, gələcək hökumət olmağı düşünürük. Bir çox hallarda iqtisadi bolokun rəhbərliyinin ağırlığını öz üzərimə götürəcəyimi deyirəm. İndidən vəzifənin adını demək yaxşı çıxmır. Amma ən azından iqtisadi-sosial blokda mühüm qərarlar alacaq şəxs olmaq mümkündür. Bu günə kimi bu istiqamətdəki fəaliyyətim, təkliflərim partiya daxilində də belə bir gözlənti formalaşdırıb.

***-Təvazökar olmayın, tay deyin ki, baş nazir olacam...***

-(Gülür) Olsun, ReAL hakimiyyətə gələndə baş nazir olaram. Onsuz da həmişə İlqar Məmmədova deyirəm ki, inşallah, sən Prezident olandan sonra biz parlamentli respublikaya keçəcəyik. Yəni, hökuməti baş nazir formalaşdırıb,o idarə edəcək.

***Z.Məmmədli***

# Təhsilimizdə "Misir Mərdanov nostalgiyası"...

## Məktəb direktorları ilə bağlı qalmaqallar səngimir, bəs nə etməli?

***Azərbaycanda təhsil müəssisələri və onların rəhbərləri ilə bağlı qalmaqallar səngimir. Elə həftə yoxdur ki, bu mövzuda hansısa ilginc xəbər yayılmasın.***

Yola sadığımız həftə də bu mənada, təəssüf ki, istisna olmadı. Məsələn, Gəncədə Peşə Liseyi və məktəblərdə mənimsəmə ilə bağlı cinayət işi başlanıldığı açıqlandı; məlum oldu ki, prokurorluq orqanı tərəfindən aparılan araşdırmalara görə, 1 nömrəli Gəncə Peşə Məktəbində ümumilikdə 34 min manat, 2 nömrəli Gəncə Peşə Məktəbində ümumilikdə 25 min manat, 3 nömrəli Gəncə Peşə Liseyində isə ümumilikdə 32 min manat məbləğində ziyan vurulmaqla qeyd edilən vəsait talanıb. Ardınca Abşeronun Mehdiabad qəsəbəsi 5 saylı tam orta məktəbin sabiq direktoru Samirə Əkbərovanın qanunsuz əməlləri ilə bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işinin ibtidai istintaqı tamamlandığı bildirildi. Sitat: "Aparılan istintaqla müəyyən edilib ki, Samirə Əkbərova həmin məktəbin direktoru vəzifəsində işləyərkən, öz qulluq mövqeyindən istifadə edərək Təhsil Nazirliyinin işə qəbulla bağlı müəyyən edilən qaydalarından kənar ayrı-ayrı vətəndaşlara onların həm özünün direktoru olduğu orta məktəbə, həm də digər təhsil müəssisələrinə xeyli miqdarda pul müqabilində müəllim, kitabxana müdiri və sair vəzifələrə düzəldəcəyi barədə yalan vədlər verib aldadaraq, həmin vətəndaşların 30 min manat məbləğində pulunu dələduzluq yolu ilə ələ keçirib..."

Bu da son deyil. Yevlax şəhər İrəvanlı qəsəbə tam orta məktəbində yol verilmiş qanunsuzluqlarla bağlı Maliyyə Nazirliyindən daxil olmuş materiallar əsasında rayon prokurorluğunda araşdırma aparıldığı açıqlandı. Yevlax Rayon Prokurorluğundan bununla bağlı verilən məlumatda deyilirdi ki, aparılmış araşdırma ilə qeyd edilən məktəbin vəzifəli şəxsi (şəxsləri) tərəfindən 2016-2021-ci illər ərzində bir neçə şəxsin əmək fəaliyyətini həyata keçirmədiyi halda adlarına olan əmək haqqı kartlarına köçürülən ümumilikdə 44 min 434 manat məbləğində pul vəsaitini öz qulluq mövqeyindən sui-istifadə etməklə mənimsənilməsinə əsaslı şübhələr müəyyən edilib.

Bəli, bunlar yalnız bu həftə ərzində təhsil sahəsindəki rüşvət və korrupsiya ilə bağlı oxuduğumuz xəbərlərdir.

Əslində bəlkə də sözügedən sahədəki qanunsuz əməlləri gözlər önünə sərən həmin xəbərlərə əlavə şərh vermək artıqdır. Necə deyərlər, "kor- kor, gör- gör"...

Lakin bəzi məqamları vurğulamaqda fayda var. Son bir-iki ildə onlarla məktəb direktoru işindən kənarlaşdırılıb. Hansı ki, onların bir çoxu ilə bağlı şikayətlərin ardı-arası kəsilmirdi. İntəhası, bütün bunlara baxmayaraq ümumi mənzərə dəyişmir: hər ay bir neçə təhsil müəssisəsi, yaxud onların rəhbər şəxsləri qalmaqallı xəbərlərlə gündəmə gəlirlər.

Üstəlik, belə məktəb direktorlarının çoxu hələ Misir Mərdanovun nazir olduğu vaxtdan həmin vəzifələrdə işləyirlər. Görünən odur ki, zaman dəyişir, təhsil nazirləri dəyişir, ölkədə idarəçilik prinsipləri dəyişir, dövrün tələbinə uyğun çağırışlar ön plana çıxır, lakin təhsil ocaqlarının rəhbərlərinin çoxu üçün hələ də "köhnə hamam, köhnə tas" normativi qüvvədədir. Görünür, onlar üçün Mərdanov dövrünün standartları ilə işləmək daha sərfəli və əlverişlidir - əlbəttə, şəxsi maraqlar baxımından!



Nəticədə istər-istəməz sual etməli olursan: doğrudanmı, Azərbaycanda təhsil müəssisəsi rəhbərlərinin peşəkar, işinə bağlı, sağlam pedaqoqlardan təşkili bu qədər çətindir? Həqiqətənmi, birbaşa gələcəyimizlə bağlı olan ciddi bir məsələnin kökündən həlli üçün hələ uzun müddət gözləmək lazımdır?

Açığı, hazırkı təhsil naziri Emin Əmirullayevin bir müddət əvvəl söylədiklərindən sonra çox da optimist ola bilmirsən. Nazir demişdi ki, "hazırda məktəb direktoru seçmə məsələsi bir tərəfə qalsın, hansı məktəbdə hansı fənni neçə saat dərs demək lazım olduğunu da Təhsil Nazirliyi müəyyən edir. Çünki hətta bu şərtlər çərçivəsində belə biz hər il bir neçə məktəb direktorunun həmin saatları qeyri-düzgün bölməkdə, paylamaqda problemlərini görürük". Vəziyyətin az qala bu qədər acınacaqlı olması ürək ağrıdır. Lakin bir məsələ qətidir: Azərbaycanda təhsil müəssisələrinə rəhbərlik edənlərin seçimində ədalət, şəffaflıq və müasir dövrün çağırışları, yeni təhsil standartları, qaydaları əsas götürülmədikcə uğurlu nəticədən danışmaq çətin, hətta mümkünsüz məsələdir. Hələ də Misir Mərdanov dönəminin normativləri ilə düşünən və hərəkət edən məktəb direktorlarının mövcudluğu şəraitində biz təhsil ocaqlarının rəhbərləri ətrafında qalmaqalları da çox görəcəyik, ümumilikdə təhsil sisteminin imicini korlayan hal və hərəkətləri də...

**Sənan Mirzə**



# Naxçıvanda yerləşən bölmələrimiz kompleks məşq keçirdi

***Əlahiddə Ümumqoşun Ordunun hava hücumundan müdafiə birləşmə, hissə və bölmələrində kompleks məşq keçirilib.***

Əlahiddə Ümumqoşun Ordudan Unikal.org-a bildirilib ki, şəxsi heyətin sayıqlığını və peşəkarlığını yoxlamaq üçün məşqə Ordu aviasiyası da cəlb edilib.

Kompleks məşqə Əlahiddə Ümumqoşun Ordunun hava hücumundan müdafiə birləşmə, hissə və bölmələrinin yüksək döyüşə hazırolma vəziyyətinə gətirilməsi ilə başlanılıb.

Plana əsasən zenit-raket, radiotexniki və quru qoşunlarının hava hücumundan müdafiə bölmələri ilə qarşılıqlı əlaqədə hava düşməninin zərbələrinin dəf edilməsi məşq etdirilib.

Komandir və döyüş heyətlərinin real döyüş şəraitində hava hücumundan müdafiə döyüşünün aparılması vərdişlərinin təkmilləşdirilməsi məqsədilə hava düşmənini təqlid edən Ordu aviasiyası praktiki uçuşlarla məşqlərə cəlb edilib.

Yer hədəflərinə müxtəlif taktiki fənd və üsulların tətbiqi ilə məşq edən pilotlar tərəfindən hava hücumundan müdafiə vasitələrinin təsirinin dəf edilməsi üçün mürəkkəb pilotoji manevrlər yerinə yetirilib.

Radiotexniki bölmələrin kəşfiyyat vasitələri ilə düşmən hədəfləri aşkarolunma həddinə çatdıqda əldə olunmuş məlumatlar komanda məntəqəsinə ötürülüb. Döyüş heyətləri tərəfindən hava hücum vasitəsinin dövlət hava sərhəddinə uçub çatma vaxtı və zenit-raket divizionlarının məhvetmə zonasına girmə ardıcıllığı üzrə hesabatlar aparılıb.

Düşmənin hava hücum vasitələri növbətçi qüvvələrin 1 nömrəli hazırlığa gətirilmə həddinə çatdıqda zenit-raket bölmələrinə 1 nömrəli hazırlıq elan olunaraq alınmış döyüş tapşırığına əsasən zenit-raket bölmələrinin komanda məntəqəsi hədəflərin aşkarlanması, izlənməsi və məhv edilməsi üzrə fəaliyyətləri yerinə yetirib.

Döyüş heyətləri tərəfindən zenit-raket bölmələrinin raket ehtiyatının təyin olunmuş normaya çatdırılması üçün buraxıcı qurğulara döyüş raketləri doldurulub.

Quru qoşunlarının hava hücumundan müdafiə bölmələri aşağı və ən aşağı hündürlüklərdə fəaliyyət göstərən hava düşməninin aşkarlanması, müşahidə və məhv edilməsi üzrə döyüş tapşırıqlarının icrasına davam ediblər.

Ehtiyatda olan zenit-raket bölmələri ümumqoşun birləşmələrinin hava hücumundan müdafiəsini təmin etmək məqsədilə təyin olunmuş start mövqelərinə yerdəyişməni həyata keçiriblər.

Obyektlərin və birləşmələrin hava hücumundan müdafiəsini təmin edərkən qorunan ümumqoşun birliklərinin döyüş fəaliyyətlərindən asılı olaraq zenit-raket qoşunlarının hissə və bölmələri ilə quru qoşunlarının hava hücumundan müdafiə bölmələri arasında 3 mərhələdən ibarət qarşılıqlı əlaqə yaradılıb.

Birinci mərhələdə düşmənin hava hücum vasitələrinin obyektlərə və qoşun qruplaşmalarına zərbə vurmasının və dərinliklərə doğru uçub keçməsinin qarşısını almaq məqsədilə vahid hava hücumundan müdafiə sistemi qurulub. Bu zaman atışlar üzrə qarşılıqlı əlaqə hədəflərə görə qüvvələrin cəmləşdirilməsi və ya bölüşdürülməsi yolu ilə aparılıb.

İkinci mərhələdə zenit-raket qoşunlarının bölmələri ilə quru qoşunlarının hava hücumundan müdafiə bölmələri atəş və məlumat mübadiləsi üzrə qarşılıqlı əlaqə yaradıblar. Atışın aparılması üzrə qarşılıqlı əlaqənin əsas üsulu qüvvələrin sektorlara və hündürlüklərə görə bölüşdürülməsi ilə icra olunub.

Üçüncü mərhələdə zenit-raket və quru qoşunlarının hava hücumundan müdafiə bölmələrinin atəş zonaları bölündüyünə görə onlar arasında məlumat mübadiləsi həyata keçirilib.

Beləliklə də real döyüş şəraitində hava hücumundan müdafiə döyüşünün aparılmasını kompleks şəkildə məşq edən bölmələr yüksək peşəkarlıq və ustalıq nümayiş etdiriblər.

# Deputatların yeni nazirdən gözləntiləri nədir...

***Azərbaycanın yeni gənclər və idman naziri Fərid Qayıbov artıq işə başlayıb. Ötən gün kollektivə təqdim olunan nazir ilk çıxışında rəhbərlik edəcəyi qurumda yeniliklərin olacağının anonsunu verib, hazıki nəticələrlə kifayətlənməyəcəyini söyləyib.***

"Qarşımıza qoyulan vəzifələri yerinə yetirməli və çətinlikləri aradan qaldırmalıyıq. Mən bu nəticələrlə kifayətlənməyəcəyəm, Azərbaycan idmanının inkişafı üçün əlimdən gələni edəcəyəm", - F.Qayıbov dünən kollektiv qarşısında çıxışında deyib.

Bəs 42 yaşlı nazirdən gözləntilər nədir? O hansı yeniliklərə imza ata bilər?

Milli Məclisin Gənclər və idman komitəsinin üzvləri Fərid Qayıbovdan gözləntilərini Modern.az-a açıqlayıblar.

Deputat Könül Nurullayeva əvvəlcə xatırladıb ki, Azərbaycanda dövlət səviyyəsində hər zaman gənclər və idman sektorunun inkişafı istiqamətində kompleks tədbirlər həyata keçirilib. Onun sözlərinə görə, bu gün idman və gənclər sektorunun inkişafı istiqamətində yeni mərhələ başlayır:

"Yeni təyin olunan nazir Fərid Qayıbov idman ictimaiyyətində kifayət qədər nüfuzu olan şəxsdir. Qəbul zamanı dövlət başçımızın da söylədiyi kimi, Fərid müəllim uzun illədir idman sahəsində fəaliyyət göstərir, eyni zamanda Avropa Gimnastikasının Prezidenti kimi həm də beynəlxalq arenada böyük nüfuz qazanıb. Hesab edirəm ki, bu təcrübə nazirlik qarşısında duran başlıca vəzifələrin - idman və gənclər siyasəti sahəsində yaxşı nəticələrin əldə olunmasına imkan yaradacaq. Azərbaycan idman ölkəsi kimi mövqeyini bundan sonra da gücləndirəcək. Bunun üçün dövlətimizin kifayət qədər potensialı var. Dövlət başçımız idman sahəsində müəyyən çatışmazlıqların olduğunu da diqqətə çatdırdı. Yeni mərhələdə bütün səylər həm də bu nöqsanların aradan qaldırılmasına yönələcək".

Gənclər sektoruna gəlincə, deputatın sözlərinə görə, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas prinsipdir və gənc nəsil bu ruhda tərbiyə almalıdır: "Milli ruh, vətənpərvərlik ruhunda tərbiyə alan gənc nəsil mənfi xarici təsirdən uzaq olmalıdır. Təbii ki, bunun üçün ilk növbədə düzgün tərbiyə işləri aparılmalı, gənclərin yüksək biliklərə, intellektə yiyələnərək, cəmiyyətdə öz yerini tapmaları təmin olunmalıdır. Bu məsələdə hər bir vətəndaş məsuliyyət daşıyır. Qloballaşma proseslərinin mənfi fəsadlarına toxunmaqla dövlət başçımız bu təhlükənin mövcudluğunu bir daha diqqətə çatdırdı. Təcrübə göstərir ki, yalnız intellektual, sağlam düşüncəli gəncləri təsir altına salmaq mümkün deyil. Təbii ki, burada vətənpərvərlik, milli-mənəvi dəyərlərə bağlılıq başlıca şərtdir. Biz 44 günlük Vətən müharibəsində bunun bir daha şahidi olduq. Döyüşlərdə canından keçən gənc şəhidlərimiz vətənpərvər, təəssübkeş Azərbaycan gənci obrazını yaradıblar. Azərbaycan gənci deyəndə bu gün ilk olaraq Xudayar, Cəbrayıl, Muxtar kimi yüzlərlə fədakar, qəhrəman oğullarımız yada düşür. Təsadüfi deyil ki, bu gün müzəffər xalqın gəncləri məhz 44 günlük Vətən müharibəsində tarix yazan qəhrəmanlarımızdan örnək götürür, onların keçdiyi qısa, lakin şərəfli həyat yolunu özləri üçün nümunə hesab edirlər.

Prezident İlham Əliyevin söylədiyi kimi, bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər. Həqiqətən də bunun çox böyük mənəvi və psixoloji mənası var. Bundan sonra biz müzəffər xalq kimi, qalib ölkə kimi, qürurlu insanlar kimi yaşayacağıq. Müzəffər xalqın gəncləri olaraq qarşımızda ciddi vəzifələr dayanır. Gənclərimiz bütün fəaliyyət istiqamətlərində milli maraqları nəzərə almalı, yeni mərhələdə Böyük Qələbəni əks etdirən şanlı tariximizi yaşatmalı və qorumalıdır".

Deputat Müşfiq Cəfərov isə vurğulayıb ki, Prezident İlham Əliyev yeni naziri qəbul edərkən bir sıra problemlərlə bağlı öz fikirlərini səsləndirib, müvafiq tapşırıqlar verib: "Bu, əsasən idman sahəsi ilə bağlıdır. Sonuncu Yay Olimpiya Oyunlarında əldə edilən nəticələr ürəkaçan olmadığına görə Prezident yeni nazirə tapşırıqlar verdi. Problem araşdırılmalı, təhlil edilməli, səbəbləri aşkarlanmalıdır. Təbii ki, federasiyalarla, klublarla, məşqçilərlər işə yenidən baxılmalıdır. Hesab edirəm ki, yeni təyin edilmiş nazir üçün bu sahə tanışdır. O kifayət qədər təcrübəyə sahibdir. Gimnastika üzrə uğurlarımız çox olub, beynəlxalq turnirlərə ev sahibliyi etmişik. İdmanda mövcud olan problemlərin aradan qaldırılacağına inanıram. Yaxın zamanlarda ilkin addımlar atılacaq. Həm gənclər, həm də idman sahəsi Azərbaycan üçün əhəmiyyətli sahələrdir. Bununla bağlı böyük işlər görülüb və hər iki sahə yenə gündəmdə saxlanılmalıdır. Bunlar Azərbaycan üçün prioritet sahələrdir, bu belə də qalacaq".

Deputat Şahin Seyidzadə ilk növbədə Fərid Qayıbovu nazir təyin olunması münasibətilə təbrik edərək, ona işlərində uğurlar arzuladığını deyib: "Azərbaycan müstəqillik qazandıqdan sonra həm gənclər, həm də idman sahəsində əhatəli işlər görülüb. Hər dövrün öz tələbi olduğu kimi, müasir dövrümüzün də yeni hədəfləri, yeni yanaşmaları var. Yeni nazirlə görüş zamanı cənab Prezident İlham Əliyev tərəfindən əsas prioritet və hədəflər ortaya qoyuldu. Yeni təyin olunmuş nazirə olkə rəhbərliyi tərəfindən böyük etimad göstərilib. Bir daha cənab naziri təbrik edir, işlərində müvəffəqiyyətlər arzulayıram".

# Mahir Quliyevin özününküləşdirdiyi torpaqlar geri qaytarılır

## Həbsdəki sabiq icra başçısının qanunsuz biznesinə son qoyulur

***Ötən ilin aprelində Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) keçirdiyi xüsusi əməliyyat nəticəsində saxlanılan və "vəzifə səlahiyyətlərindən sui-istifadə etmə", "təkrar rüşvət alma", "mənimsəmə faktlarına görə" maddələri ilə barəsində ittiham elan olunan Biləsuvar Rayon İcra Hakimiyyətinin sabiq başçısı Mahir Quliyevlə bağlı maraqlı məlumatlar var.***

Saxlanılması ilə bağlı DTX-nın yaydığı videoda qanunsuz əməllərini etiraf edərək, "bundan utandığını" bildirən və ölkə başçısı tərəfindən aprelin 30-da vəzifəsindən azad olunan Quliyevin sözügedən postu pulların bir qismi sabiq başçının biznesinə yönəldilib" deyə bildirilir.

Daha bir ilginc iddia isə ondan ibarətdir ki, Quliyevin əkib-becərtdiyi məhsullar toplandıqdan sonra onların satışı da əksər hallarda zorakı şəkildə həyata keçirilib. Belə ki, sabiq başçı vəzifə səlahiyyətlərindən sui-istfadə edərək bu məhsulları rayon ərazisindəki ticarət subyektlərinə, kafe-restoranlara sözün həqiqi mənasında "sırıyırmış". Bundan başqa, rayon icra hakimiyyətinin və onun yerli nümayəndəliklərinin ərzaq alınması üçün keçirdiyi tenderlərdə də əsasən Mahir Quliyevin fermer təsərrüfatlarının məhsullarını alanlar qalib ilginc karyera yüksəlişinə malikdir. O, 1976-1977-ci illərdə Kəlbəcər rayon İstehlak cəmiyyətində satıcı, 1977-1979-cu illərdə həqiqi hərbi xidmətdə olub.1980-1981-ci illərdə "Azərnəqliyyat" tikinti trestində usta, 1981-2005-ci illərdə "26 Bakı Komissarı" adına rayonun İctimai iaşə idarəsində satıcı, inzibatçı, kafe müdirinin müavini, restoran müdiri işlədikdən sonra qəfil şəkildə vəzifə pillələri ilə yüksəlməyə başlayıb - 2005-2006-cı illərdə Səbail bələdiyyəsində sədr müavini olan Quliyev ardınca 2006-2011-ci illərdə isə Astara Rayon İcra Hakimiyyətinin Başçısı vəzifələrində işləyib. 2011-ci ilin aprelində isə Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilib.



tutduğu doqquz il ərzində sakinlərin sənədli torpaq sahələrini ələ keçirməsi aşkarlanıb. Həmin torpaq sahələrində öz biznesini quran keçmiş icra başçısının hətta bir sakinin 50 hektar torpaq sahəsini zorla onun əlindən aldığı üzə çıxıb.

"Unikal" qəzetinə daxil olan məlumata görə, M.Quliyev icra başçısı təyin olunandan qısa müddət sonra rayon ərazisində ümumilikdə minlərlə hektar torpaq sahəsinə yiyələnib. Bu torpaqların bir qismi, yuxarıda da vurğuladığımız kimi, vətəndaşların, kiçik təsərrüfat sahiblərinin əlindən zorla alınıb, bir qismi isə sakinlərə bu və ya digər formada təzyiq edilərək gülməli qiymətə icarəyə götürülüb. "Mahir Quliyev yiyələndiyi torpaq sahələrində müxtəlif məhsullar, o cümlədən, taxıl, qarpız və sarımsaq əkdirib. Ən acınacaqlısı isə odur ki, dövlət büdcəsindən fermerlər üçün ayrılan dotasiyalardan Biləsuvar rayonunun payına düşən elan olunurmuş.

Bu da azmış kimi, iddiaya görə, rayon mərkəzində vaxtilə Muğam Teatrı kimi fəaliyyət göstərən bina sökülərək yerində mağazalar tikilib. Həmin mağazalarda isə Quliyevin yaxın adamlarının qonşu İrandan gətirdiyi ərzaq və fermer təsərrüfatlarında becərilən tərəvəz məhsulları satılırmış.

Məlumatlara görə, həbsdəki sabiq başçının saxlanılmasından, ardınca isə vəzifəsindən uzaqlaşdırılmasından sonra onun qanunsuz şəkildə sahibləndiyi torpaq sahələri sahiblərinə qaytarılmasına başlanılıb. Bundan başqa, M.Quliyevin müxtəlif yollarla yiyələndiyi bələdiyyə torpaqları, otlaqlar və s. də "istiladan" qurtulub.

Sabiq başçının korrupsiya əməllərinə görə düşdüyü çətin durumdan - həbsdən qurtulması isə mümkünsüz görünür...

Onu da deyək ki, M.Quliyev

Üstəlik, bütün bu karyera yüksəlişi onun ali təhsil diplomunun saxta olması barədə iddialar fonunda baş verib - sabiq başçının tərcümeyi-halında 2000-ci ildə Bakı şəhərində "Naxçıvan" Universitetinin İnzibati İdarəetmə ixtisasını bitirdiyi göstərilsə də, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (hazırkı Dövlət İmtahan Mərkəzi) 2016-cı ildə bir sorğunu belə cavablandırıb: "28.09.1958-ci il təvəllüdlü Quliyev Hacı Mahir oğlu Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən alı təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbulla bağlı keçirilmiş test imtahanında iştirak etməmiş və heç bir təhsil müəssisəsinə qəbul olunmamışdır".

Əlavə şərhə ehtiyac görmürük...

***Toğrul Əliyev***

# YAP-da gecikən həyəcan təbili...

## Hüseynbala Mirələmovdan Ramiz Göyüşova uzanan adi həqiqətin qeyri-adi pərdəarxası



***Gəlin öncədən bir fikirdə həmrəy olaq: şəxsi həyatın toxunulmazlığı insan hüquqları baxımından başılca prinsiplərdəndir. Bu prinsipin tapdanması istənilən halda yolverilməzdir və qanunvericiliyin tələblərinə uyğun şəkildə ən ağır formada cəzalandırılmalıdır.***

Lakin adi bir həqiqət də yaddan çıxarılmamalıdır: ictimai-siyasi fiqurlar öz yaşam tərzlərinə diqqət etmək məcburiyyətindədirlər. Üstəlik, əgər siz hakim partiyanı təmsil edirsinizsə, bu, ikiqat məcburiyyət və məsuliyyət deməkdir. Ancaq son zamanlar baş verənlərdən aydın olan budur ki, Yeni Azərbaycan Partiyasında (YAP) bu gerçəkliyin fərqində olmayanlar yetərincədir. Məsələn, 2008-ci ildən hakim partiyanın Xətai rayon təşkilatının sədri vəzifəsini yerinə yetirən sabiq deputat Hüseynbala Mirələmovun sosial şəbəkələrdə xoşagəlməz, milli-mənəvi dəyərlərlə uyğun gəlməyən görüntüləri yayıldı. Həmin görüntülərdə Mirələmovun gənc xanıma qarşı biabırçı hərəkətlər etdiyi aydın görünürdü. Sözügedən kadrlar ictimaiyyətdə böyük əks-səda yaratdı, qınaq və tənbeh mövzusuna çevrildi, nəticədə Mirələmov YAP sıralarından, həm də haqlı olaraq, kənarlaşdırıldı. Niyə haqlı olaraq? Çünki 30-dan artıq bədii və publisistik kitabın müəllifi olduğu deyilən Hüseynbala müəllimin davranışı əslində müəllifi olduğu kitabların adı ilə eyni idi - "Xəcalət", "Utanc", "Mənəviyyatın ekologiyası"...

Lakin Mirələmov olayı nə yazıq ki, bu qəbildən sonuncu qalmaqal kimi yadda qalmadı. Yola salmaq üzrə olduğumuz həftə YAP-ın başqa bir rayon təşkilat sədri Ramiz Göyüşovun biabırçı videogörüntüləri yayıldı. Hakim partiya geniş ictimai rezonans doğuran hadisəyə biganə münasibət sərgiləmədi. "Ramiz Göyüşovun sosial şəbəkələrdə yayılmış, heç bir əxlaqi normalara sığmayan videogörüntüləri ilə bağlı böyük təəssüf hissi keçirir və hiddətlə qınayaraq bildiririk ki, onun YAP Binəqədi rayon təşkilatının sədri kimi səlahiyyətlərinə cari ilin 30 iyun tarixində keçirilmiş hesabat konfransında artıq xitam verilib" - hakim partiyanın Mərkəzi Aparatının İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elməddin Quliyevin KİV-ə açıqlamasında bildirilib.

Həmçinin qeyd edilib ki, YAP Binəqədi rayon təşkilatının yeni sədrinin təyinatı ilə yanaşı R.Göyüşovun ümumiyyətlə partiya sıralarından xaric edilməsi məsələsinə isə YAP İdarə Heyətinin 10 sentyabr tarixində keçiriləcək iclasında baxılacaq.

Lakin fikrimizcə, əvvəl Mirələmov, arxasınca isə Göyüşov hadisəsi bir məqamı açıq şəkildə ifadə eləmək ehtiyacı doğurur: hakim partiyada ciddi təmizləməyə ehtiyac var. Əgər hökumət kabinetindəki önəmli postlarda dəyişikliklər yaşanır, hətta bir zamanlar "toxunulmaz" sayılan nazirlər belə vəzifələrindən kənarlaşdırılırsa, korrupsiyaya, rüşvətə bulaşan məmurlar arxalarındakı himayəçi gücün kimliyindən asılı olmayaraq qandallanırsa, bir sözlə, idarəetmədə ciddi kadr və struktur islahatları aparılırsa, bütün bunlar nə üçün Yeni Azərbaycan Partiyasından yan keçməlidir? YAP-ın da sözügedən islahatlardan nəsibini alması siyasi məntiqəuyğunluq deyilmi?

Əks halda hakim partiyada Mirələmovların, Göyüşovların yaşadığı, cəmiyyətə də yaşatdığı xoşagəlməzliklərin yeni nümunələri ilə qarşılaşa bilərik. Bu isə yekunda hakim partiyanın ictimaiyyətdəki nüfuzunu daha da ağır zərbə altında qoya bilər. Açıq danışaq: mütəmadi şəkildə keçirilən xüsusi əməliyyatlar nəticəsində korrupsiyaya görə həbs edilən nazirlərin, nazir müavinlərinin, icra başçılarının, digər vəzifəli şəxslərin ifşa olunan qanunsuz əməlləri onsuz da YAP-ı çətin vəziyyətdə qoyur. Bu sıraya hakim partiyanın rayon təşkilatları sədrlərinin əxlaqsız videolarının da əlavə olunması hakimk partiyaya ikiqat zərbədir.

Odur ki Yeni Azərbaycan Partiyasında da köhnəliyə savaş açılmalıdır: Mirələmov, Göyüşov kimi onsuz da cəmiyyətdə mənfi təəssürat oyadan şəxslər YAP-dan kənarlaşdırılmalı, hakim partiyada da gənc eyni zamanda sağlam kadrlar mövqe tutmağa başlamalıdır. YAP üzvlüyünü və funksionerliyini öz şəxsi maraq və mənfəətlərinin təmin edilməsi üçün "tramplinə" çevirənlərlə biryolluq üzülüşmək tarixi zərurətdir.

Yeni Azərbaycan Partiyasında bu zərurətə qarşı çıxanlar varsa, buna bir sözümüz yoxdur. Lakin onlardan həmin mövqelərini əsaslandıracaq arqumentlər eşitmək də haqqımızdır.

Əlbəttə, əgər arqumentləri həqiqətən də əsaslıdırsa!..

***Toğrul Əliyev***

# "Azərbaycanlı pilot Qarabağda 58 hədəfi məhv edib"- Rusiya hərbi saytı



***Azərbaycanın İkinci Qarabağ müharibəsi zamanı tətbiq etdiyi uğurlu hərbi taktikalar, fərqli hərbi əməliyyatlar hələ də xarici ekspertlər və media tərəfindən araşdırılmaqdadır. Müharibənin başa çatmasından 10 ay keçməsinə baxmayaraq, bir sıra hərbi mütəxəssislər qısa zamanda zəfər çalmağı bacarmış ordunun aviasiyasını, quru qoşunlarının fəaliyyətini və s. məsələləri detallarına qədər analiz edirlər.***

Rusiyanın tanınmış hərbi saytlarından birində Azərbaycanlı pilotların məharətindən söz açılıb. Təlimlərdən görüntü yayan sayt iddia edir ki, məhz kadrlara düşən "Su-25"-lər Qarabağda Ermənistan qüvvələrinin mövqelərinə edilən hücumlarda uğurlu şəkildə iştirak ediblər.

"TurAz Şahini - 2021": Qırıcılar səmaya qalxdıMəqalədə qeyd edilir ki, bir sıra Rusiya informasiya saytlarının jurnalistləri oxuculara "TurAz Şahini-2021" adlı Azərbaycan-Türkiyə birgə hərbi təlimləri keçirilərkən kadrlara düşən qırıcıları nəzərdən qaçırmamağı məsləhət bilib. Rusiyalı jurnalistlər deyirlər ki, diqqətli oxucular üçün Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus döyüş qırıcılarının üzərində yeni və çoxlu sayda xüsusi ulduz işarəsi gözə dəyib . Döyüş təyyarələrinin gövdəsinə bu cür işarələrin əlavə edilməsi isə məhv edilmiş hədəflərin sayını göstərir.

"Jurnalistlər Azərbaycan Hərbi Hava Qüvvələrinin Su-25 hücum təyyarələrindən birində 58 ulduz sayıblar. Bu səbəbdən də mütəxəssislər deyirlər ki, həmin təyyarənin ekipajı Dağlıq Qarabağdakı döyüşlər zamanı 44 günə eyni sayda düşmən hədəfinə zərbə endirməyi bacarıb. Üstəlik, oxucuların diqqətinə çatdırılır ki, Ermənistan ordusunun mövqelərinə edilən hücumlarda məhz bu görüntülənən Su-25 aktiv iştirak edib. Mütəxəssislər "TurAz Şahini-2021" hərbi təlimlərində iştirak edən başqa bir təyyarədə 38 işarəni sayıblar. Bu isə Azərbaycan ordusunun həmin döyüş təyyarəsindən çox istifadə etməməsi anlamına gəlir. Az ulduz onun əməliyyatlarda daha az fərqlənməsini göstərir. Ümumiyyətlə onlar Pilotsuz Uçuş Aparatlarından (PUA) daha çox istifadə edərək düşmən mövqelərinə uğurlu zərbələr endirməyə çalışdılar",-Rusiya hərbi nəşri yazıb.

Xatırladaq ki, Azərbaycan Ordusunun 44 gülük Vətən müharibəsi zamanı tətbiq etdiyi bir sıra uğurlu hərbi taktikaları hər zaman beynəlxalq ekspertlər tərəfindən yüksək qiymətləndirilib. Şuşa əməliyyatı, 21-ci əsrin müharibəsini aparan hərbçilərimizin ən müasir texnikalardan, PUA və digər yeni silahlardan səmərəli istifadə etməsi xarici medianın da diqqətini hələ də çəkməkdədir. Bir sıra ali hərbi məktəblərdə isə Qarabağ müharibəsindəki əməliyyatlar və taktiki gedişlərin dərsliklərə salındığı bildirilir.

# "Qarabağ müharibəsindən sonra Türkiyə PUA-larına maraq artıb" - Bayraktar



***"Türkiyənin istehsal etdiyi pilotsuz uçuş aparatlarına (PUA), xüsusilə də "Bayraktar TB2"-yə dünyada böyük maraq var".***

"Unikal" Türkiyə KİV-lərinə istinadən xəbər verir ki, bunu "Baykar" şirkətinin texniki direktoru Səlcuq Bayraktar deyib.

Onun sözlrinə görə, İdlib və Qarabağda hərbi əməliyyatlardan sonra bu maraq daha çox artıb:

"Əslində "Bayraktar TB2" pilotsuz uçuş aparatları İdlibdə, "Zeytun budağı" və "Fərat qalxanı" əməliyyatlarında və son olaraq Qarabağda istifadə olunduqdan sonra geniş maraq oyatdı. Hətta bəzən sifarişləri yerinə yetirməkdə çətinlik çəkirik. "Baykar" gəlirlərinin 70 faizini ixracatdan əldə edir. Bu günədək 10-dan çox müqaviləsi imzalamışıq".

Bayraktar əlavə edib ki, şirkət hazırda "Akıncı" PUA-larının istehsalı üzərində çalışır, eyni zamanda "Bayraktar TB3" və pilotsuz hərbi təyyarə layihələri ilə bağlı işlər aparılır.

# DYP-dən piyadalara XƏBƏRDARLIQ



***Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) piyadalara xəbərdarlıq edib.***

BDYPİ-dən "Unikal"a daxil olan xəbərdarlıqda deyilir:

"Yəqin ki çoxlarımız avtomobil yollarının ayırıcı zolaqlarında quraşdırılmış dəmir və ya beton səddi üst-başı bulaşaraq aşan, sonra da yolun hərəkət hissəsində sürətlə şütüyən avtomobillər arasında çaşqın və köməksiz durumda qalan, nəqliyyat axınının ortasında ora-bura vurnuxan, sürücülərin kinayəli, əsəbi baxışları fonunda xaotik hərəkət edən piyadalarla rastlaşmışıq.

Məhz piyada təhlükəsizliyinin təmin edilməsi üçün böyük zəhmət və vəsait hesabına inşa edilmiş yeraltı və ya yerüstü piyada keçidlərinin mövcud olduğu ərazilərdə belə özlərini çıxılmaz vəziyyətə salan şəxslərin onları intizama dəvət edən dövlət yol polisi əməkdaşlarına verdikləri cavab isə "tələsirdim", "bilmədim", "fikirliydim" kimi ifadələr olur.

Əslində yolu nəzərdə tutulmayan yerdən keçərkən təhlükə altında qoyduğu həyatının, habelə onu sağ-salamat yola salıb evdə qayıtmağını gözləyən ailə üzvlərinin dəyərinin hər şeydən üstün olduğunu yaxşı bilən bu insanların etiraf edəcəkləri başqa sözlər var - özünə, doğmalarına, bütövlükdə isə cəmiyyətə münasibətdə səhlənkarlıq, etinasızlıq və məsuliyyətsizlik.

Qeyd edilən fikirlər dəqiq hesabatlara söykənən obyektiv reallıqdır. Aparılan təhlillər göstərir ki, cari ilin 8 ayı ərzində respublika ərazisində baş verən yol-nəqliyyat hadisələrinin 41%-ni piyadaların vurulması təşkil edib, nəticədə 190 nəfər həlak olub, 267 nəfər isə xəsarət alıb. Bakı şəhəri üzrə qeydə alınan qəzaların isə daha çoxunu, yəni 56,4%-ni piyada vurma hadisələri təşkil edib ki, bu da 80 nəfərin həyatına son qoyub, 107 nəfərin yaralanmasına səbəb olub.

Göstərilən rəqəmləri formalaşdıran qəzaların təhlili məsələyə fərqli baxmağı zəruri edir. Məsələ ondadır ki, ümumilikdə piyada vurma hadisələrinin 90%-dən çoxu məhz piyada keçidlərindən kənarda baş verib. Yol hərəkəti iştirakçılarının böyük bir hissəsini təşkil edən piyadaların yolu nəzərdə tutulmayan yerlərdən keçməsi hələ də özlərinin və başqalarının həyat və sağlamlığına qarşı biganəliyin hökm sürdüyündən xəbər verir.

Göründüyü kimi, piyada keçidlərində onların vurulması az hallarda qeydə alınmışdır. Lakin, öz təhlükəsizliyinin etibarlı təmin olunması üçün istər nizamlanan, istərsə də nizamlanmayan piyada keçidlərindən istifadə edən piyadalar belə, yoldakı sürət həddini, hərəkətin intensivliyini, hava və görmə şəraitini, sürücülərin nəqliyyat vasitəsini dayandıra biləcəyini nəzərə almalı, bir sözlə, tam diqqətli olmalıdırlar.

Qeyd edək ki, təcrübədə piyadaların təqsiri üzündən baş vermiş yol-nəqliyyat hadisələrinin araşdırılması heç də asan olmur. Sürücülər adətən qəza zamanı sığorta ödənişinin həyata keçirilməsi, eyni zamanda bu halın daha ciddi məsuliyyətə səbəb olduğunu bildikləri üçün hadisə yerindən yayınmaqda maraqlı olmurlar. Amma çox vaxt sürücülər qəzanın baş verməsinə bilavasitə şərait yaradan piyadaları sadəcə məzəmmət etməklə kifayətlənir, onların hadisə yerindən yayınmasının qarşısını almağa və hüquqi məsuliyyətə cəlb olunmasına cəhd göstərmirlər.

Piyadalar isə yanlış olaraq düşünür ki, onların təqsiri üzündən baş vermiş istənilən yol-nəqliyyat hadisəsi zamanı maksimum 20 və ya 40 manat məbləğində cərimə oluna bilərlər. Lakin hərəkət iştirakçılarının, xüsusilə də piyadaların diqqətinə çatdırmaq istərdik ki, qanunvericiliyin tələbinə əsasən əgər hər hansı yol qəzası piyadaların yol hərəkəti qaydalarını pozmaları nəticəsində ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına, yaxud onun ölümünə səbəb olarsa, artıq o, cinayət məsuliyyətinə cəlb olunacaq.

Bəzən də paradoksal mənzərə ilə rastlaşırıq. Bir qrup insan hansısa yol sahəsində piyada keçidlərinin olmamasından şikayət etdiyi halda, digər bir ərazidə mövcud piyada keçidlərinin demək olar ki istifadəsiz qaldığının şahidi oluruq. Bu isə onu deməyə əsas verir ki, piyadaların yol hərəkəti qaydalarına riayət etməsi yalnız hərəkətin təşkili, infrastruktur və digər amillərə deyil, onların şəxsi məsuliyyət hissinə, yol hərəkəti mədəniyyətinə və ictimai davranış vərdişlərinə daha çox bağlıdır. Ona görə də yol hərəkəti qaydalarına əməl edilməsinin insan həyatı üçün əhəmiyyəti fərdlərə erkən yaşlarından aşılanmalı, mövcud tələblərin qeyri-şərtsiz, adi həyat norması kimi qəbul edilməsi təbliğ olunmalı və bu istiqamətdə ictimai şüur formalaşmalıdır".

"Qarşıdan payız-qış mövsümünün gəlməsini nəzərə alaraq, bir daha piyadalara səslənirik: küçə və yolları piyadalar üçün nəzərdə tutulan yerlərdən keçin, məhdudiyyətli görünmə, yəni duman, yağış, qar şəraitində, habelə sutkanın qaranlıq vaxtı xüsusilə diqqətli olun, qulaqlıqdan istifadə ətrafdakı avtomobillərin səsini eşitməyə imkan verməmdiyi üçün yolu keçərkən ondan istifadə etməyin, ictimai nəqliyyatı gözləyərkən və ona minib-düşərkən, həmçinin qəflətən avtomobil yoluna çıxmayın, yaxınlaşmaqda olan avtomobillərin sürətini düzgün qiymətləndirin, onların tam dayandığına, sürücülərin sizə yol verdiklərinə əmin olduqdan sonra hərəkətə başlayın", - İdarədən bildirilib.

# Azad Cavadov məsuliyyətdən necə yayındı...

## Əmanətlərin Sığortalanması Fondunun sabiq rəhbəri barədə çoxsaylı ittihamların bir ucu hələ də açıq qalır

***Üç il öncə medianın ən səs-küylü mövzularından biri Hesablama Palatasının Əmanətlərin Sığortalanması Fondunun fəaliyyətində ciddi maliyyə və hüquqpozmaları aşkar eləməsi idi. Belə məlum olurdu ki, "Hesablama Palatasının 2017-ci ildə fəaliyyəti haqqında" adlı hesabatına əsasən, ləğv prosesində olan "Zaminbank", "Kredobank", "Yunayted Kredit Bank", "Bank of Azerbaijan", "Gəncəbank", "Parabank", "Bank Technique", "Royalbank", "Dekabank", və "Atrabank" ASC-lərdə Əmanətlərin Sığortalanması Fondu tərəfindən (ləğvedici) həyata keçirilən əmanətçilərə kompensasiya ödənişləri üzrə ciddi maliyyə və hüquqpozmaları aşkarlanıb.***

O da əlavə edilirdi ki, Hesablama Palatası qanunvericiliyə uyğun olaraq hesabat ilində başa çatdırılmış nəzarət tədbirləri üzrə müvafiq materialları Baş Prokurorluğa göndərib.

Həmin vaxt bu da bildirilirdi ki, Baş Prokuror yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsi tərəfindən Hesablama Palatasına təqdim edilmiş məlumatlara görə nəzarət tədbirləri üzrə cinayət işi açılıb və müvafiq tədbirlər görülməkdədir.



Eyni zamanda qeyd olunurdu ki, Əmanətlərin Sığortalanması Fondunda aparılmış audit tədbiri üzrə ləğv prosesində olan QSC "Bank Standard" Kommersiya Bankının əmanətçilərinə kompensasiya ödənişləri ilə bağlı materiallar isə müvafiq qaydada Dövlət Təhlükəsizlik Xidmətinə göndərilib. " Dövlət Təhlükəsizlik Xidmətindən Hesablama Palatasına təqdim edilmiş məlumatlara görə nəzarət tədbirinin nəticələri üzrə materiallar açılmış cinayət işi üzrə araşdırılmaqdadır" - ölkənin ali audit təşkilatının hesabatında vurğulanırdı.

Nəticədə o zaman mediada adıçəkilən Fondun həmin vaxtkı rəhbəri Azad Cavadovun həbs ediləcəyinə dair iddialar gündəmə gəlmişdi. Çox keçmədi ki, səlahiyyət müddəti başa çatan Cavadov vəzifəsindən kənarda qaldı. Lakin onun zamanında Əmanətlərin Sığortalanması Fondunda baş verən qanunsuzluqların araşdırılmasının nə yerdə qaldığı məlum olmadı.

Elə Fondun sabiq icraçı direktorunun cinayət məsuliyyətinə cəlb ediləcəyi, hətta həbs olunacağı barədə müxtəlif KİV-lərdəki iddialar da özünü doğrultmadı.

Halbuki Əmanətlərin Sığortalanması Fondundakı özbaşınalıqların miqyası bir sıra millət vəkillərini belə dilə gətirmiş və onlar istər adıçəkilən qurumun, istərsə də onun rəhbərliyinin yarıtmaz fəaliyyətini ən kəskin dildə tənqid eləmişdilər.

Əslində isə bu tənqidlərə elə də ehtiyac yox idi:Hesablama Palatasının həyata keçirdiyi və yazının əvvəlində bəhs etdiyimiz audit zamanı ortaya çıxarılan çoxsaylı korrupsiya əməlləri kifayət idi ki, Azad Cavadov barəsində qanunvericiliyin tələbləri çərçivəsində hüquqi ölçü götürülsün. Üstəlik, o zamanlar mediada özünə yer alan və haqqında danışılan Fondda yeyintinin miqyasını aydın şəkildə gözlər önünə sərən faktlar belə Cavadovun cinayət məsuliyyətinə cəlb edilməsini qaçılmaza çevirirdi. Məsələn, məlum olurdu ki, Azad Cavadov:

1) Bank kreditlərinin mənimsənilməsində, vəzifə səlahiyyətlərindən faydalanaraq fəaliyyətinə xitam verilmiş banklara məxsus milyonlarla dollar pulun və əmlakın "özününküləşdirilməsində" iştirak edib;

2) "Bank Standard"a məxsus olan dəyəri 200 min manatla ifadə edilən son model "Mercedes S class" markalı avtomobili oz qapısında gizlədərək mənimsəyib və eyni zamanda "Bank Standard"a məxsus və dəyəri 150 min manat olan "Lexsus 570 LX" markalı avtomobili ova getmək məqsədi ilə özünə məxsus Goradildəki bagında saxlayıb;

3) Əmanətlərin Sıgortalanması Fondunun prosedur qaydalarına zidd hərəkət edərək sığortalanmayan əmanətlərın 50%- ni nagd şəkildə rüşvət alaraq sigortasız ödənişlər verib və s. və i.a.

Maraqlıdır ki, Cavadov həmin vaxt ünvanına səslənən bu cür ağır ittihamların bircəciyini belə təkzib eləmək ehtiyacı görməyib, ya da təkzib eləmək üçün arqument tapmayıb. Hər halda hələ də bir çoxlarının üçün sual doğurur ki, yalnız media və ictimaiyyətin deyil, hətta rəsmi qurumların, millət vəkillərinin belə ciddi tənqidlərinə baxmayaraq Əmanətlərin Sığortalanması Fondunun sabiq rəhbəri "sudan quru çıxmağı" necə bacarıb? Yaxud onun icraçı direktor olduğu dövrlə bağlı açılmış cinayət iş(lər)indən niyə sonra hər hansı xəbər çıxmayıb?

Ümid edək ki, bu və bənzər suallara ağlabatan cavab tapmaq imkanı olacaq. Əks təqdirdə bir yandan həmin sualların sırası genişlənəcək, o biri yandan isə onları cavablandırmaq daha da çətinləşəcək...

***Sənan Mirzə***

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Qarabağ bölgəsində sahibkarlığın inkişafı üçün güzəştli kreditlər verilcək!

### Samir Əliyev: "İşğaldan azad edilmiş bölgələrimizdə indidən infrastruktur qurulmalı, iş yerləri yaradılmalıdır ki, əhalinin qayıdışından sonra işsizlik problemi yaranmasın"



***Ölkəmizdə son illər regionların sosial-iqtisadi inkişafına ciddi diqqət yetirilir. Sovet dövründən çayçılıq, üzümçülük, maldarlıq, əkinçilik, tütünçülük, tingçilik, bağçılıq ənənəsi olan bölgələrdə həmin sahələrin yenidən dirçəldilməsi prosesi müşahidə olunur. Sahibkarlara həmin sahələrin dirçəldilməsi üçün dövlət tərəfindən dəstək göstərilir. Bura əsasən sahibkarlığın inkişafı üçün verilən güzəştli kreditlər daxildir. Bəs görəsən pandemiya dövründə bu proses necə həyata keçirilir? Regionların sosial-iqtisadi inkişafı üçün yeni layihələrin maliyyələşdirilməsi prosesi davam etdirilirmi?***

"Unikal" qəzetinin sorğusuna İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondundan verilən məlumata görə, bu il də Fond tərəfindən sahibkarlığın inkişafına maliyyə dəstəyinin göstərilməsi davam etdirilir. Belə ki, bu ilin ilk 4 ayı ərzində Fond tərəfindən müvəkkil kredit təşkilatları vasitəsilə 217 sahibkarın investisiya layihəsinin maliyyələşdirilməsinə 18,6 milyon manat güzəştli kredit verilib. Bu kreditlərin reallaşdırılması nəticəsində 600-dək yeni iş yerinin açılması imkanı yaranıb. Verilən kreditlərin 43%-i aqrar sektorun, 57%-i müxtəlif sənaye məhsullarının istehsalı və emalına yönəldilib. Güzəştli kreditlərin 73%-i regionlarda, 27%-i isə Bakı şəhərinin qəsəbələrində fəaliyyət göstərən sahibkarlara verilib.

Bundan əlavə pandemiya dövründə sahibkarlara böyük dəstək mexanizmi həyata keçirilir. Pandemiyadan zərər çəkmiş fəaliyyət sahələrinə investisiya qoyuluşlarının sürətləndirilməsi və bu fəaliyyət sahələri üzrə məşğulluğun qorunub saxlanması məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu sahibkarlara yeni verilən bank kreditləri üzrə dövlət zəmanətinin verilməsi və həmin kreditlər üzrə faizlərin subsidiyalaşdırılmasını, eləcə də mövcud kredit borcu olan sahibkarların kredit faizlərinin bir hissəsinin dövlət tərəfindən subsidiyalaşdırılmasını davam etdirir.Belə ki, 2021-ci ilin 31 may tarixinədək dövlət zəmanətli kredit və faizlərin subsidiyalaşdırılması mexanizmi çərçivəsində 1026 müraciət üzrə 258,3 milyon manat kreditə 149,7 milyon manat məbləğində dövlət zəmanəti verilib. Mövcud kredit portfelinin subsidiyalaşdırılması mexanizmi üzrə isə kredit qalığı 819,2 milyon manat olan 4497 müraciətə 57 milyon manat faiz subsidiyasının verilməsi barədə müsbət qərar qəbul edilib və artıq 49,3 milyon manat subsidiya ödənişi həyata keçirilib.

İqtisadçılar bundan sonra regionların iqtisadi inkişafı prosesinə Qarabağ bölgəsi üzrə regionların da daxil ediləcəyini bildirirlər.

Samir Əliyev bildirib ki, işğaldan azad edilmiş ərazilərə insanlar köçməmiş sahibkarlıq müəssisələri yaradılmalıdır: "Orada ən azı fermer təsərrüfatları yaradılmalıdır. Sanatoriya, hotellərin inşası, turizmin inkişafı üçün şərait yaradılmalıdır. Bunun üçün güzəştlər işə düşməlidir. Düşünürəm ki, Qarabağ bölgəsi üzrə sahbkarlığın inkişafı üçün faizsiz kreditlər verilməlidir. Hətta sahibkarlara yardımlar da verilə bilər. Hər bir halda işğaldan azad edilmiş bölgələrimizdə indidən infrastruktur qurulmalı, iş yerləri yaradılmalıdır ki, əhalinin qayıdışından sonra işsizlik problemi yaranmasın".

S.Əliyev onu da bildirir ki, Qarabağda hər rayon üzrə sosial-iqtisadi inkişaf planı hazırlanmalıdır: "Qarabağın sosial-iqtisadi inkişafı üzrə planın hazırlanması vacib amildir. İşğaldan azad edilmiş rayonlarımızda müxtəlif sahələr üzrə sahibkarlıq fəaliyyətinə imkanlar var. Ən başlıca yeri isə kənd təsərrüfatı tutur" deyə iqtisadçı bildirir.

Qeyd edək ki, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu regionlarda aqrar sektorda emal müəssisələrinin yaradılması və mövcud emal müəssisələrinin modernləşdirilməsi və ya genişləndirilməsi üçün güzəştli kreditlər verir. Bu siyahıya aqropark və fermer təsərrüfatlarının yaradılması və ya genişləndirilməsi,ətlik və südlük istiqamətli cins iribuynuzlu və digər heyvandarlıq komplekslərinin yaradılması, əkinçilik, intensiv bağçılıq və tingçilik təsərrüfatlarının yaradılması, qurudulmuş və dondurulmuş meyvə-tərəvəz istehsalı, qüvvəli yem və ət kəsimi müəssisələrinin yaradılması və ya genişləndirilməsi, çayçılıq, pambıqçılıq, tütünçülük, çəltikçilik, baramaçılıq və üzümçülük təsərrüfatlarının yaradılması və sair daxildir. Tütünqurutma, baramaqurutma, yun və dəri qəbulu məntəqələrinin yaradılması və ya genişləndirilməsi də Fondun dəstək verdiyi sahələr sırasındadır. Buraya işğaldan azad olunmuş ərazilərdə sosial-iqtisadi inkişafa xidmət edən biznes layihələrinin dəstəklənməsi də daxil edilib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Vüqar Səfərli 9 tədbirdən 104 min manat qazanıb

***KİVDF-nin hazırda həbsdə olan keçmiş icraçı direktoru Vüqar Səfərlinin cinayət işi ilə bağlı daha bir maraqlı məqam üzə çıxıb.***

Unikal.org "Kriminalqafqaz"a istinadən xəbər verir ki, Vüqar Səfərli qulluq mövqeyindən istifadə edərək baş mühasib Təhminə Yaqubova ilə birlikdə Fondun hesabına keçirilən tədbirlərdə böyük məbləğdə mənimsəmələr edib.

Sabiq direktor Yeni il, Novruz Bayramı və Milli Mətbuat Günü ərəfəsində jurnalist yazı müsabiqələrinin mükafatlandırma mərasimləri ilə bağlı təşkil olunan ziyafətlər üçün ayrılan vəsaitlərin bir hissəsini restoranlardan geri alıb.

O, "Altun" restoranının inzibatçısı Şahin İbrahimov, direktor müavini Təmkin Xəlilov, "Xəmsə" restoranının icarədarları Valeh Orucov və Bəxtiyar Fətullayevlə əvvəlcədən anlaşaraq, tədbirlərdə iştirakçıların sayını 350-400 nəfər kimi göstərib. Lakin faktiki olaraq, qonaqların sayı 250-ni keçməyib. İştirakçıların sayı ilə yanaşı, yemək norması da şişirdilmiş formada göstərilib.

Tədbirlər üçün Fondun büdcəsindən ayrılan pullar sözügedən restoranların bank hesablarına köçürülüb. Daha sonra isə restoran rəhbərliyi həmin pulu nəğdləşdirərək, əvvəlcədən danışılmış hissəni Vüqar Səfərliyə geri qaytarıblar.

Vüqar Səfərli faktla bağlı istintaqa ifadəsində bildirib ki, tədbirlər üçün ayrılan vəsaitlər tam olaraq obyekt sahiblərinə ödənilib. O, ziyafətlərdə iştirak edən qonaqların sayının az olmasını isə çağırılan şəxslərin hamısının tədbirə gəlməməsi ilə əlaqələndirib.

Şahin İbrahimov istintaqa ifadəsində bildirib ki, ziyafətlərdə bir nəfər üçün 55-60 manat pul alınırdı. Restoran yalnız yeməklə təmin olunmanı təşkil etsə də, V.Səfərli protokolda dəvətnamə hazırlanması, video çəkiliş, musiqiçilərin dəvət olunması, banerlərin yerləşdirilməsi, tədbir zamanı keçirilən oyunlarda qaliblərə hədiyyələr təqdim olunması və s. kimi əlavə xərcləri də restoranın adına yazdırıb. Sabiq direktor hər tədbir üçün KİVDF-dən restoranın hesabına köçürülən 50 min manatın 25 minini geri alıb.

Bu yolla Vüqar Səfərli ümumilikdə 9 tədbir üzrə KİVDF-ə məxsus 104 444 manat məbləğdə vəsaiti mənimsəyib.

Qeyd edək ki, dəymiş ziyanla bağlı Şahin İbrahimov və Təmkin Xəlilov Baş Prokurorluğun depozitinə 50 min manat ödəyiblər.

# Milli parklara 200 minə yaxın turist gəlib

***Ən çox turist qəbul edərək ilk üçlükdə yer alan milli parklarımız Göygöl, Şahdağ və Abşeron milli parklarıdır.***

"Unikal" xəbər verir ki, bu barədə Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəsmisi Arzu Səmədova deyib. O bildirib ki, milli parklarımıza 2021-ci ilin əvvəlindən bugünədək ümumilikdə 195 015 nəfər turist səfər edib. Gələnlərin əksəriyyəti yerli turistlər olsa da, ziyarətçilər arasında çoxlu sayda xaricilər də olub.

Xidmət rəsmisinin sözlərinə görə, son illər milli parklara gələn turistlərin sayında artım müşahidə olunur ki, bu da ilk növbədə insan-təbiət vəhdətinin qurulması istiqamətində aparılan ardıcıl maarifləndirmə, təbliğat işləri ilə yanaşı, ekoturizmin təbliği məqsədilə milli parklarda təşkil olunan maarifləndirici tədbirlərlə əlaqədardır.

"Biz bu gün xüsusi iftixarla deyə bilərik ki, milli parklarımızın hamısı əvəzolunmaz təbiət inciləridir və turistlər bu gözəllikləri həvəslə ziyarət edərək, həm füsunkar mənzərələrdən zövq ala bilir, həm də vəhşi təbiətlə birbaşa təmas qurmuş olur".



# ABADA beynəlxalq əlaqələrini genişləndirir

***Azərbaycanın mövcud loqistika, nəqliyyat imkanları ölkə iqtisadiyyatı üçün bu sahənin inkişafını qaçılmaz edir.***

Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Asossasiyasından ( ABADA ) "Unikal"a verilən məlumata görə, Şərq-Qərb, Şimal-Cənub nəqliyyat marşrutlarının işə salınması, 44 günlük vətən müharibəsindən sonra isə Zəngəzur dəhlizinin prioritet kimi qəbul edilməsi yükdaşıma xidmətinin keyfiyyətli, müasir və innovativ təşkilinə zəmin yaradır. ABADA bu sahədə xidmət göstərən daşıyıcıların hüquqlarının qorunmasını, onları beynəlxalq səviyyədə tanınan sertifikatlarla təmin edilməsini təşkil edir. ABADA-nin yenilənməsi, sturukturun tam və innovativ formada formalaşdırmasına zəmin yaradır.

Beynəlxalq əlaqələrin genişləndirilməsi və bu sahədə qabaqcıl təcrübələrin öyrənilməsi məqsədi ilə silsilə tədbirlərə başlanılıb. Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı (İRU), Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidməti, Türkiyənin Beynəlxalq Nəqliyyatçılar Dərnəyi (UND) ilə mütəmadi fikir mübadiləsi aparılır. Son olaraq Türkiyənin Beynəlxalq Nəqliyyatçılar Dərnəyi (UND) ilə idarəetmə sisteminin təkmilləşdirilməsi, UND-nin keyfiyyət nəzarət sisteminin üstünlükləri ilə bağlı Bakıda görüş təşkil olunub. Bu məqsədlə Türkiyənin Beynəlxalq Nəqliyyatçılar Dərnəyinin nümayəndə heyəti Bakıya səfər edib.

3 günlük səfər çərçivəsində yükdaşıma, loqistika sahələri üzrə UND-nin keyfiyyətə nəzarət sisteminin ABADA-da tətbiqi ilə bağlı fikir mübadiləsi aparılıb.

Konfransda Türk daşıyıcıların Azərbaycan ərazisindən birbaşa Orta Asiyaya keçidini təşkil məsələləri müzakirə olunub. Bildirilib ki, hazırda cənub istiqamətindən İrandan, şimaldan isə Rusiya və Gürcüstandan keçməklə Orta Asiyaya yükdaşımaları icra edilir. Bu işlərin birbaşa Azərbaycan üzərindən həyata keçirilməsi üçün Türkiyə nümayəndə heyəti mövcud vəziyyəti yerində araşdırıb.

Eyni zamanda Azərbaycanlı daşıyıcıların UND vasitəsi ilə Avropa bazarlarına çıxış imkanlarının genişləndirilməsi barədə də danışıqlar olub. Azərbaycanlı daşıyıcıların, ekspeditorların, menecerlərin peşə ixtisaslarının təkmilləşdirilməsi üçün UND-nin tədris bazasından istifadə olunması haqqında razılıq əldə edilib.

UND ilə Türkiyə hökuməti arasında koordinasiyalı işin nümunəsi əsasında Azərbaycanda da inkişafda olan kiçik və orta biznesin dövlət qurumları ilə ictimai işirakçılıq haqqında qanunun müddəaları əsasında tərəfdaşlığa formasının hazırlanması və icrası ilə bağlı da fikir mübadiləsi aparılıb. NRYTN ilə ABBADA arasındakı münasibətlərin bu praktikanın tətbiqi və inteqrasiya olunması üçün təkan olduğu vurğulanıb.

Görüşdə çıxış edən ABADA İB-nin prezidenti Azərbaycanla Türkiyə arasında siyasi, iqtisadi əlaqələrin hər iki ölkə liderinin əsas hədəflərindən olduğunu vurğulayıb. UND-nin prezidenti yükdaşıma sahəsinin ölkələrimiz üçün strateji istiqamət olduğunu vurğulamaqla yanaşı, Azərbaycan və Türkiyənin beynəlxalq tranzit potensialının təkcə region üçün deyil, Avropa və Asiya üçün də mühüm əhəmiyyət kəsb etdiyini qeyd edib. Yeni strateji plandan bəhs edən ABADA İB-nin prezidenti, müasir xidmətin qurulmasında maraqlı olduğunu diqqətə çatdırıb. Bu məqsədlə bir çox ölkələrin praktikaları öyrənilib. Son olaraq UND-nin keyfiyyətə nəzarət, təminat sistemləri, idarəetmə sturukturu uyğun və məqbul seçilib. ABADA Prezidenti Türkiyənin Beynəlxalq Nəqliyyatçılar Dərnəyinin təcrübəsinin əsas götürülərək ABADA üçün yeni idarəetmə konsepsiyayası hazırlanacağını qeyd edib.

Görüşdə çıxış edən UND-nin icra aparatının rəhbəri Alper Özel uzun illərə dayanan tərəfdaşlığa və dəstəyə görə ABADA-ya və onun rəhbərliyinə təşəkkür edib. Azərbaycanın Türkiyənin Şərqə açılan qapısı olduğunu qeyd edən UND rəsmisi, Azərbaycan üzərindən daşınan yüklərin Türkiyənin iqtisadi potensialında mühüm rol oynadığını bildirib. A.Özəl bir çox texniki və birokratik məsələlərin həllində ABADA-nın onlara verdiyi dəstəyə, yardıma görə təşəkkür edib.

Qeyd edək ki, UND nümayəndə heyətinin Azərbaycana səfər proqramı çərçivəsində Rusiya Federasiyası ilə sərhəd, keçid məntəqəsinə ziyarəti də planlaşdırılır.

# Lerikin tarix yazan igid oğlu

***Lerikin qartalı dağlardan qürur alan, qəlbi məhəbbətli mərd övladı Davud Xeyrulla oğlu Şirvanov əzəli-əbədi yurdumuz Qarabağın azadlığı uğrunda sevdalandığı Vətənin qeyrətini hər şeydən üstün tutmaqla şirin canını onun yolunda qurban etməyi bacardı. Elə Davudun 1994-cü ildə Lerik rayonunun Livədirqə kəndində dünyaya göz açması bunun üçün idi. Dağlar diyarın igid oğlu ömrünün 26-ci baharında yaşına uyuşmayan elə bir tarix yazdı ki, onun adı heç vaxt qəlblərdən silinməz. İndi cismən həyatda olmasa da, Davudun millətinə yadigar qoyduğu əməllərdə Vətənə, torpağa ilahi bir məhəbbət yaşayır.***



Davud el-obanın xoşbəxtliyi naminə saf, ülvi hisslərlə yaşaya bilirdi. O, müstəqil həyatına müqəddəs əməllərə tapınmaqla qədəm qoyur. Gördüyü yaxşı işlərlə tez də tanınır, sevilir. 2012-ci ildə əsgərlik yaşına çatanda ətrafı Davudun Vətənə layiqli övlad olacağına tam inanır.

Bəli, Davud cəbhə bölgəsində layiqli bir övlad kimi doğma Azərbaycan qarşısında borcunu şərəflə yerinə yetirir. Qarabağı zəbt edən, öz alçaq əməlindən qalmaq istəməyən erməni dığaları dəfələrlə Davudun Vətəninə, torpağına olan sədaqəti qarşısında məğlub duruma düşürlər. Əsgər yoldaşlarına da töhfəsi bu olur:" Vətəni qorumaq, çətin məqamda onun yolunda canından keçmək bizim oğulluq borcumuzdur."

Davud əsgərlikdən sonra kəndində halal zəhmətin qulpundan yapışır. Gördükləri ilə cəmiyyətə böyük faydası dəyir, nəticədə yaxşı insan kimi qəlblərdə özünə yurd salır. Beləcə kəndində həyatı firavan keçsə də, Qarabağ dərdi onu rahat buraxmır. Vətən torpaqların azadlığı naminə hərbiyə yazılır. Cəsurluğuna, igidliyinə, mərdliyinə güvənib Davudu Füzuli rayonundakı "N" saylı hərbi hissədə MAXE kimi işə götürürlər. Birinci amalı da müharibə meydanında düşməni əzib, işğal olunan Vətən torpaqların azadlığı olur. Davud bu müqəddəs arzusuna çatmaq üçün hərbi məşqlərdə fərqlənir, ona həvalə olunan tankın "dilini" mükəmməl öyrənir və torpaq naminə düşmən üzərinə getdiyi anı gözləyir...

Vətən müharibəsi başlanan kimi Davud özünü döyüş meydanına atır və deyir:" Vətən onu sevən, canı-qanı qədər istəyən mərd övladları sayəsində azadlığa qovuşur." Zəfərə getdiyimiz haqq yolunda Davud dəfələrlə odun-alovun içindən keçir. Yüksək şəxsi rəşadəti, şücaəti onunla döyüş meydanında olan əsgərləri də qələbəyə aparır. Sinəsini Vətənə sipər edən igid döyüşçü oktyabrın 2-də daxil olmaqla düşmənə qan qusdurur. Onun qurduğu istehkamlarını, çoxlu sayda zirehli texnikasını, canlı qüvvəsini məhv edir. Düşməndə ürəyincə intiqamı alandan sonra ömrünü Vətəninə verir. Bu da ona ölməzlik qazandırır.

Lerik camaatı üçün Davudun adı çox əzizdir, igid oğlunu qəlbində yaşatmaqla hər zaman, hər yerdə onu şərəfini uca tuturlar. Dövlət tərəfindən ölümündən sonra aldığı "Vətən uğrunda", "Füzulini azad olunmasına görə" medalları da Davudun həqiqətən doğma Azərbaycana üçün ömrünün yaşamasına bir nümunədir.

***Zəfər Orucoğlu,***
***AJB üzvü***

# Əmək haqları hansı şərtlərlə artırılacaq? - AÇIQLAMA

***Növbəti 3 il ərzində əmək haqlarının əmək məhsuldarlığı ilə uzlaşdırılmaqla artırılması dövlət büdcəsində xərclər üzrə siyasətin əsas istiqamətlərindən biri olacaq.***

Unikal.org-un məlumatına görə, bu, Maliyyə Nazirliyinin 2022-2025-ci illər üçün makrofiskal çərçivə və 2022-ci il üçün icmal və dövlət büdcələrinin ilkin göstəricilərinə dair açıqlamasında qeyd olunub.



Bildirilib ki, dövlət büdcəsinin əsas xərc istiqamətləri ortamüddətli resurs zərfinə uyğun olaraq milli xərc prioritetləri əsasında müəyyənləşdirilib. 2022-2025-ci illərdə dövlət büdcəsi xərcləri əsasən dövlətin əsas funksiyalarının təmin edilməsinə, o cümlədən müdafiə və təhlükəsizlik, sosial təminat, səhiyyə, təhsil və dövlət borcuna xidmətlə bağlı xərclərin maliyyələşdirilməsinə, eləcə də iqtisadi artımın davamlılığının dəstəklənməsinə yönəldiləcək.

Qeyd edək ki, gələn il dövlət büdcəsinin xərcləri 28 milyard 974 milyon manat proqnozlaşdırılır.

# COVID-19 xəstəsi küçədə saxlanıldı

***İsmayıllı Rayon Polis Şöbəsi əməkdaşlarının xüsusi karantin rejimi ilə əlaqədar keçirdikləri nəzarət-profilaktik tədbirlər zamanı aktiv koronavirus xəstəsi ictimai yerdə aşkarlanıb.***

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Şəki regional qrupundan Unikal.org-a verilən məlumata görə, rayon sakini Samir Şahhüseynovun COVID-19 testinin nəticəsi pozitiv olduğu üçün ona ev şəraitində müalicə təyin edilib, sanitar-karantin qaydaları izah olunub.

Lakin o, qaydaları pozaraq yaşadığı ünvanı tərk edib və infeksiyanın yayılmasına şərait yaradıb. Həmin şəxs şəhər ərazisində hərəkətdə olarkən polis əməkdaşları tərəfindən saxlanılıb və tibbi prosedurlar da gözlənilməklə yaşadığı ünvana geri qaytarılıb.

S.Şahhüseynov barəsində İsmayıllı Rayon Polis Şöbəsində araşdırma aparılır.



# Bahalaşmaya səbəb nədir və nə etmək lazımdır



***İqtisadiyyatda bərpa prosesi ilə yanaşı, istehlak bazarında bahalaşmanın davam etməsi xüsusi diqqət və izahat tələb edir. Çünki bir var, iqtisadi canlanmanın təsiri nəticəsində yaranan, başqa sözlə desəm, iqtisadi aktivliyin arxasında gələn bahalaşma, bir də var, mövcud iqtisadi canlanma üçün buxova çevrilə bilən, yəni iqtisadi aktivliyin qabağında gedən bahalaşma. Ölkədəki real bahalaşma təəssüf ki, sonuncudandır.***

Hökumətin cari ilə dair inflyasiya proqnozu 4 faiz ətrafındadır və israrla vurğulanır ki, bu, özünü doğruldacaq. İstehlak qiymətlərinin real artım səviyyəsi isə belə deməyə əsas vermir. İlin ilk 7 ayının nəticəsinə görə ölkədə istehlak qiymətlər indeksi 4,5 faiz təşkil edib. Artıq payız mövsümü yetişdiyindən tələbin bir az da artacağını nəzərə alsaq, rəqəmin daha çox yüksələcəyi gözlənilir.

Bəs, buna səbəb nədir? Ümumiyyətlə, qiymətlərin yüksəlməsinin qarşısını necə almaq olar? Bahalaşmadan sığortalanmaq üçün hansı tədbirlər görülməlidir?

Ölkədə bahalaşmanın əsas hərəkətverici qüvvəsi xidmət və ərzaq məhsullarıdır. Bunu Mərkəzi Bank (AMB) da təsdiq edir. Belə ki, ilin əvvəlindən bəri xüsusən, ərzağın qiymətinin yüksəlməsi ümumi inflyasiya həddinin formalaşmasında başlıca rol oynayır ki, qeyri-ərzaq və xidmətlərin qiymət artımının buna təsiri demək olar, hər ay artan tendensiya üzrə inkişaf edir. Cari ilin iyununda illik ərzaq inflyasiyası 5,3 faiz olub və qeyri-ərzaq məhsulları, xidmətlər üzrə isə illik bahalaşma templəri müvafiq olaraq, 4,6 və 4 faiz təşkil edib.

İstehlak səbətinə daxil 520 adda mal və xidmətdən 245-nin və ya 47 faizinin qiyməti illik olaraq 0-4 faiz aralığında artıb. Bahalaşma dalğası qeyd olunan rəqəmləri getdikcə şişdirir ki, bu da, ümumi inflyasiya rəqəmini artırmaqda davam edir.

Ölkədə mövcud bahalaşmanın iqtisadi aktivlik dərəcəsindən qabaqda getdiyini təsdiqləyən həm də bunun ilin əvvəlindən başlaması faktorudur. Xatırladıram ki, iqtisadiyyat may ayında pandemiyanın təsir və təzyiqindən çıxaraq, bərpa olunmağa başlayıb. May ərzində qiymətlərin artım sürəti daha yüksək tempdə oldu ki, bu, tənəzzülün qarşısının alınması və yaxud sənginməsi ilə üst-üstə düşdüyündən, işgüzar fəallığın dirçəlməsi ilə əlaqədar baş verdiyi təəsüratı yarandı. Ancaq belə deyildi.

Bahalaşma yanvardan başlayıb. Və bunun da iki səbəbi var idi. Birincisi, ən çox işlənilən enerjidaşıyıcısı olan "Aİ-92" benzin ilə dizel yanacağının yanvardan bahalaşması və fevralın 1-dən də suyun tarifinin artırılması; ikincisi isə ilin əvvəlindən dünya üzrə də eyni tendensiyanın start götürməsi.

Hazırda bütövlükdə dünya iqtisadiyyatında da bərpa meyilləri müşahidə olunur. Ancaq pandemiya şəraiti hələ tam sovuşmayıb. Odur ki, yenə məhdudiyyətlərin tədbiq olunacağı ehtimalı var. Və bu qorxu hissi və risk vəziyyəti də bərpa prosesinə kövrək xarakter qazandırır. Bunu bir sıra strateji məhsulların dünya bazar qiymətlərinin aşağı və yuxarıya doğru oynaması faktoru da təsdiqləyir.

Buradan hansı nəticələr çıxır? Ölkəmizdəki bahalaşma həm daxili, həm də xarici səbəblərlə əlaqədardır. Başqa sözlə desəm, Azərbaycanda istehsal xərclərinin artması yerli məhsulların bahalaşmasında əsas rol oynayır. Tənzimlənən məhsulların - yanacağın və suyun qiymətlərinin artırılması istehsalın maya dəyərini yüksəldib. Üstəlik, qaz tariflərinə də iyulun 1-dən dəyişiklik edilib, elektrik enerjisinə də baxılacağı gözlənilir. Bu gözləntilərin yaratdığı risklər istehsal olunan məhsulların maya dəyərinə mərhələli şəkildə oturmaqda davam edir. Özü də, enerji daşıyıcılarının tarif dəyişiklikləri istehsal dəyərinə birinci dəfədən deyil, mərhələlərlə bütün il boyu ərzində daxil olur.

İnflyasiyanı sürətləndirən daha bir amil isə istehlak xərclərinin artması, yəni tələbin yüksəlməsi faktorudur. Məsələn, kütləvi tədbir və şənliklərə qoyulan məhdudiyyət aradan qaldırıldıqdan sonra xeyli növdə və sayda ərzaq, o cümlədən, qeyri-ərzaq məhsullarına tələbat artıb. İstehlak tələbini artıran digər səbəblər də var ki, bunları qoyuram kənara. Pandemiyadan dərhal sonra isə nə yerli istehsal, nə də idxal imkanları bu tələbi qarşılayacaq səviyyədə deyil. İdxal inflyasiyası belə yaranır. Buna görə də, qiymətlər istər-istəməz artır.

Sözün qısası, bu gün bazarda baş verən təbii bahalaşmadır. Hökumət bunun qarşısını inzibati yolla ala bilməz. Bu cür cəhdlər iqtisadiyyatı, sahibkarları ciddi problemlərlə üzləşdirə bilər. Ona görə də, bahalaşmadan sığortalanmaq üçün yalnız əhalinin gəlirləri artırılmalı və bundan ötrü müvafiq addımlar atılmalıdır. Əməkhaqları, pensiya, sosial müavinət və ödənişlər yüksəldilməlidir. Başqa çıxış yolu yoxdur.

***Pərviz Heydərov***

# Leyla Əliyevanın kitabı fin dilində nəşr olunub




***Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın "Açıq pəncərə" kitabı fin dilində nəşr olunub.***

Diasporla İş üzrə Dövlət Komitəsindən "Unikal"a bildirilib ki, Leyla Əliyevanın "Açıq pəncərə" şeirlər toplusu oxuculara ruhun, fikrin, duyğunun təzahürü olan, peşəkarlıqla qələmə alınan yaradıcılıq nümunələrini çatdırır, onları poeziyanın səmimiyyətinə bir daha inandırır.

Kitab Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Finlandiyanın "Palladium kirjat" nəşriyyatında fin dilində nəşr olunub. Kitabın ön sözündə Leyla Əliyevanın bioqrafiyası və lirikası barədə oxuculara məlumat verilib, onun sosial və ictimai fəaliyyətindən geniş bəhs olunub. Kitab fin dilində 800 nüsxə çap olunub.

Qeyd edək ki, "Açıq pəncərə" kitabını fin dilinə Helsinkidə yaşayan məşhur tərcüməçi və yazıçı, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Tahirə Cəfərova tərcümə edib. Tahirə Cəfərova Finlandiya Yazıçılar İttifaqının, CEATL Avropa Tərcüməçilər Birliyinin və Fin-Pen klubunun üzvüdür. O, uzun illər Tampere Universitetində Ədəbiyyat və İncəsənət kafedrasında çalışıb. 20 ildən çoxdur ki, fin ədəbiyyatının tərcüməsi ilə məşğul olur. Bir neçə fin şairinin uşaq şeirlərini və həmçinin bir sıra pyesləri Azərbaycan dilinə tərcümə edib.

Azərbaycan diasporunun fəal təmsilçisi Tahirə Cəfərova bu günədək Finlandiyada Azərbaycan ədəbiyyatını tanıtmaq üçün xeyli işlər görüb, bir sıra ədəbi nümunələri fin dilinə tərcümə edib.

# Bakıda duman, rayonlarda yağış olacaq

***Sentyabrın 10-na gözlənilən hava şəraiti açıqlanıb.***

Milli Hidrometeorologiya Xidmətindən "Unikal"a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 18-20º isti, gündüz 24-27º isti olacaq. Bakıda gecə 18-20º isti, gündüz 24-26º isti olacaq. Atmosfer təzyiqi 766 mm civə sütunundan 761 mm civə sütununa enəcək. Nisbi rütubət 60-70 % , gündüz 45-50 %olacaq.

Abşeron çimərliklərində şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 23-24º isti, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 24-25º isti olacaq.

Tibbi-meteoroloji proqnoza gəlincə, Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim təreddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Səhər bəzi yerlərdə duman. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 18-22º isti, gündüz 25-29º isti, dağlarda gecə 5-10º isti, gündüz 12-17º isti olacaq.

# Nərminin qətli ilə bağlı daha bir cinayət işi icraata verildi

***Tovuz rayonunun Dondar Quşçu kəndində 2019-cu ilin noyabrında ilkin düşmüş, ay yarım sonra yandırılmış vəziyyətdə meyiti tapılan 10 yaşlı Nərmin Quliyevanın qətlilə bağlı ayrıca cinayət işi ayrılaraq icraata verilib.***

Bunu Gəncə Ağır Cinayətlər Məhkəməsində iş üzrə keçirilən prosesdə dövlət ittihamçısı deyib.

O bildirib ki, İlkin Süleymanovun işi məhkəməyə göndəriləndə ondan daha bir cinayət işi ayrılıb və həmin iş üzrə istintaq davam edir. İstintaq cinayətdə digər şəxslərin müəyyənləşdirilməsi üçün ayrılan cinayət işinin istintaqı davam etdirilir.

Xatırladaq ki, 2019-cu ildə Tovuz rayonunun Dindar Quşçu kəndində kənd sakini, 10 yaşlı Nərmin Quliyeva itkin düşüb. 2020-ci il yanvarın 6 da N. Quliyevanın meyiti evlərinin yaxınlığında yandırılmış vəziyyətdə tapılıb.

İş üzrə kənd sakini İlkin Süleymanov təqsirləndirilən şəxs qismində həbs edilib.

# "Taliban" daha nələrə Kabildir: Dünya sürprizlərə hazırlaşır - TƏHLİL



***Əfqanıstanda yaşanan hadisələr və bu ölkə ətrafında aparılan oyunlar istər-istəməz bəşəriyyətin özü qədər qədim "Quo vadis, Domine" ifadəsini yada salır. Rəvayətə görə, "Hara gedirsən, İlahi?" kimi səslənən bu kəlamla apostol Pyotr İsa peyğəmbərə müraciət edib. İndi də bütün dünya "Taliban"ın Əfqanıstanı hara aparacağını düşünür.***

Çox güman ki, sürprizlərə hazır olmaq, onları qabaqlamaq üçün preventiv tədbirlər görmək və Əfqanıstanın daxili siyasi həyatına təsir mexanizmləri düşünüb-daşınmaq üçün bu gün G7 ölkələri xarici işlər nazirləri səviyyəsində görüş keçirirlər. Çoxdandır ki, Rusiyanı öz sıralarından kənarlaşdırmış bu ölkələr görüşə Moskvanı, hətta Pekini dəvət etsələr də, Kreml qatılmaqdan imtina edib. Yeri gəlmişkən, Yaponiyanın Xarici İşlər naziri Tosimitsu Moteqi həmin dəvətləri Rusiya və Çinin Əfqanıstandakı vəziyyətə təsirə malik olmaları ilə izah edib. Yəqin ki, bu iddianın müəyyən əsasları da var. Amma, istər bu ölkələrin, istərsə də digər aktorların Əfqanıstandakı vəziyyətə təsiri nəyi isə köklü şəkildə dəyişə bilə bilərmi? Bundan başqa, "Taliban" Əfqanıstanının özü regional duruma və qlobal geosiyasi proseslərə hansı təsiri göstərəcək?

İlk növbədə aydın olan budur ki, taliblər yeni dayanıqlı idarəetmə sistemi formalaşdırana qədər indiyədək az-çox səmərəli fəaliyyət göstərən sahələrdə neqativ halların yaşanacağı şübhə doğurmur. Əslində, belə hal bütün inqilabi çevrilişlərin gündəmə gətirdiyi reallıqdır. Şəriət qanunları ilə idarə olunacaq Əmirlik yaradacağını bildirən "Taliban"ın üsul-idarəsinin əfqan cəmiyyətinə hansı "sürprizlər" bəxş edəcəyini təsəvvürə gətirmək çətin deyil. Daha doğrusu, biz artıq bunun şahidiyik. Taliblərin opponentlərinə və xarici qüvvələrlə əməkdaşlıq etmiş vətəndaşlara qarşı apardıqları mübarizə Əfqanıstanın ən azı yaxın bir neçə ildə qanlı-qadalı vətəndaş müharibəsi meydanına çevriləcəyindən xəbər verir. Tarix isə sübut edir ki, vətəndaş müharibələrində xarici ölkələrdən gələn və yaxud da məqsədyönlü şəkildə göndərilən "uğur centlmenləri" əlahiddə rol oynayırlar.

Bu baxımdan, Yaponiyanın xarici işlər nazirinin Rusiya və Çinin müəyyən mənada Əfqanıstanda yaşanan proseslərə təsiri olması barədə dedikləri heç də gəlişigözəl sözlər deyil. Amma, yalnız bu iki ölkəninmi? ABŞ-ın və onun müttəfiqlərinin Əfqanıstanı tələm-tələsik tərk etməsi heç də həmin ölkələrin kəşfiyyat idarələrinin əlaltılarının yoxa çıxdığına dəlalət etmir. Xüsusilə də Əfqanıstan kimi mürəkkəb coğrafi relyefli ölkənin heç vaxt tam şəklidə mərkəzi hakimiyyətin nəzarəti altında olmaması faktorunu nəzərə alsaq, buna şübhə yeri qalmır. Beynəlxalq koalisiyanın heç bir işlək mexanizm yaratmadan buranı tərk etməsi və məhz hərbi müdaxilə illərində narkotrafikin misilsiz həddə çatması isə Əfqanıstanın vətəndaş müharibəsi xaosuna sürüklənməsini şərtləndirən başlıca amillərdir.

Hərçənd, "Taliban"ın birinci hakimiyyəti (1996-2001) illərində Əfqanıstanda narkotrafiklə mübarizədə böyük uğur qazanılsa da, indi nəhəng bir şəbəkəyə çevrilmiş və ciddi gəlir gətirən bu sahədən taliblərin asanlıqla imtina edəcəkləri inandırıcı görünmür. Bu mənada, "Taliban"ın verdiyi dumanlı vədlər heç də hadisələrin hamar cərəyan edəcəyi anlamına gəlmir. Yəqin elə bu səbəbdən də ABŞ-ın Dövlət Departamenti Əfqanıstanın müvəqqəti hökumətində bəzi şəxslərin yer almasından narahat olduğunu açıqlayıb. Vaşinqton həm hökumətdə, həm də müşavirlər arasında qadınların yer almadığından, başqa sözlə desək, gender bərabərsizliyindən narazılığını bildirib.

Demək olar ki, bütün məsələlərdə güzəşt anlayışını inkar edən "Taliban" hər sahədə öz xəttini yeritməkdə israrlı olacaq ki, bu da ilk növbədə Əfqanıstanın həmsərhəd ölkələrlə əlaqələrində ciddi gərginliyə səbəb ola bilər. "Taliban"la Pakistan arasında yaranmağa başlayan soyuqluq müəyyən mənada bunun sübutudur. Bu sərinləmənin isə bir neçə səbəbi var. Əvvəla, taliblərin terrorçu "Təhrik-i-Taliban Pakistan" qruplaşmasının təmsilçilərini və onların baş komandiri Maulvi Fakir Mühəmmədi həbsdən azad etməsi İslamabadda ciddi narazılıq yaradıb. Çünki İslamabad sözügedən qruplaşma ilə bağlı verdiktin çıxarılmasını özünün səlahiyyəti sayırdı. Baxmayaraq ki, bu təşkilatın hərbi qruplarının əksər hissəsi Əfqanıstanda yerləşir. Bu isə o, deməkdir ki, taliblər lazım olan vaxtda onun fəaliyyətindən Pakistana qarşı istifadə edə bilərlər. Həmin zərurət isə Pakistanla Əfqanıstan arasında sərhəddi müəyyənləşdirən "Dürand" xəttinin qanuniliyinin taliblər tərəfindən tanınmaması ilə bağlı qarşıdurmada yarana bilər.

Hazırda Pakistanın "Qəbilələr ərazisi federal idarəsi"nə daxil olan 150 min kvadrat kilometrlik və 6 milyon əhalinin yaşadığı bu torpaqları taliblər öz əraziləri sayırlar. ABŞ-la müharibə dövründə bu məsələyə toxunmayan taliblər indi hətta "Böyük Puştunistan" iddiasını qaldıra bilərlər ki, bu da Pakistanla Əfqanıstan arasında çox ciddi ərazi münaqişəsinin gündəmə gəlməsinə səbəb olacaq. Onu da xatırlatmaq yerinə düşər ki, "Dürand" xəttinin inkarında etnokonfessional mənsubiyyətindən asılı olmayaraq, bütün əfqanlar vahid mövqe tuturlar.

Taliblər tərəfindən böyük təhdidlərə məruz qala biləcəyinə ehtiyatla yanaşan ölkələrdən biri də Rusiyadır. Çünki "Taliban"ın verdiyi vədlərə baxmayaraq, radikal islam cərəyanının Rusiyanın cənub-şərq qurşağında yerləşən Mərkəzi Asiyaya sirayət etməyəcəyinə, daha doğrusu, ixrac edilməyəcəyinə heç kim zəmanət verə bilməz. Belə halda Mərkəzi Asiyada qanlı-qadalı qarşıdurmaların qızışması və bu od-alovun tezliklə Rusiyaya keçəcəyi şübhə doğurmur. Bu isə böyük qurbanlar və resurslar hesabına, güc-bəla ilə radikal islam cərəyanını cilovlamış Moskva üçün ciddi təhlükədir. Məhz bu səbəbdən Moskva "Taliban" hökumətini tanımağa və onunla əlaqələr qurmağa hələ tələsmir. Bir sözlə, Kreml gözləmə mövqeyindədir.

Bu kontekstdə bəzilərinin hələ 1979-cu ilin aprelində Sovet İttifaqının Əfqanıstana hərbi müdaxiləsini Siyasi Büronun marazma yoluxmuş 4 qoca üzvünün (L.Brejnev, Y.Andropov, A.Qromıko və D.Ustinov) sərsəm qərarı kimi qələmə vermək cəhdləri çox bəsit yanaşmadır. Çünki SSRİ rəhbərliyi indiki təhlükənin qarşısını hələ o vaxt almağa çalışırdı. Başqa məsələdir ki, bu problemin həlli üçün effektiv variant seçilməmişdi. Amma bu da etiraf olunmalıdır ki, sözügedən mərəzin müalicə üsulunu heç dünyanın yeganə supergücü sayılan ABŞ da tapa bilmədi. Həmin ABŞ ki, Əfqanıstana hərbi müdaxilədən (özü də SSRİ kimi təkbaşına yox, beynəlxalq anti-terror koalisiyası yaratmaqla) və tələm-tələsik oradan qaçmaqdan başqa heç nə etmədi.

Çinə gəldikdə isə, Pekin onsuz da ciddi başağrısı olan uyğur məsələsinə "Taliban"ın bu və ya digər şəkildə müdaxilə cəhd göstərə biləcəyindən narahatdır. Yeri gəlmişkən, Çin və Pakistanla mürəkkəb münasibətləri olan Hindistan bu məsələdə dolayısı ilə "Taliban"ın tərəfində oynaya bilər.

Paralel olaraq, Mərkəzi Asiyada öz iqtisadi-siyasi təsir gücünü əhəmiyyətli dərəcədə möhkəmləndirmiş Çinin regionla bağlı planlarının risklərlə üzləşməsi mümkündür.

Ankara üçün bu məsələdə ən ciddi təhlükə onun strateji müttəfiqi rolunda çıxış edən İslamabadla Kabil arasında münasibətlərin kəskinləşməsi və milyonlarla qaçqın əfqanın son sığınacaq kimi Türkiyəni seçməsi ola bilər. Bu zaman "qaçqın" pərdəsi altında xeyli terrorçunun da bura "pənah" gətirməsi və sonradan xarici havadarlarının tapşırığı ilə terror aktları törədə biləcəyidir.

Maraqlıdır ki, əfqan qaçqınlarının üzünə qapıları bərk-bərk bağlayan bir sıra Avropa ölkələri Türkiyənin tranzit və sığınacaq ölkə rolunu oynamasını tövsiyə edirlər. Hazırda 4 milyon miqrantın Türkiyədə yaşadığını bildirən Ankara həmin ölkələrə sərt olduğu qədər də haqlı cavab verib. Rəsmi Ankara onu da xüsusi vurğulayıb ki, üçüncü dövlətlərin bölgədə apardığı siyasət üzündən yaranmış problemlərin Türkiyənin öz üzərinə götürəcəyinə ümid bəsləmək lazım deyil. Çətin ki, belə obyektiv mövqeyə etiraz edən tapılsın.

Bəzi ekspertlərə görə, İran İslam Respublikası taliblərin hakimiyyətə gəlməsindən uduşla çıxa və iki ölkə arasındakı 20 illik ədavət aradan götürülə bilər. Belə ki, İranın taliblərlə kifayət qədər yaxşı münasibətləri var. "Taliban"ın əvvəlki rəhbəri Molla Axtar Mənsur məhz İrana səfərdən qayıdarkən PUA ilə qətlə yetirilmişdi. Rəsmi Tehranın habelə "Taliban"ın ən məşhur simalarından olan, Əfqanıstanın sabiq baş naziri Gülbəddin Hikmətyarla münasibətləri də pis deyil. Bu baxımdan, İranı gözləyən ən böyük təhlükə əfqan qaçqınlarının axını ola bilər.

Sadalanan məqamlar bir daha sübut edir ki, Əfqanıstan məsələsi hələ dünyanın gündəmində çox qalacaq, daha dəqiqi isə, saxlanılacaq. Çünki dünyanın güc mərkəzlərinin bir-birinə qarşı apardıqları geosiyasi oyunlar məhz imperiyaların məzarıstanı olan Əfqanıstan kimi dövlətlərin mövcudluğunu zəruri edir. Bu məkanlarda kimi hansı "sürpriz"in gözlədiyini isə zaman göstərir.

***Sahil İsgəndərov,***
***politoloq***

# Samir Abasovun əvəzləyicisi bəlli oldu - "Neftçi"də

***Bu mövsüm avrokuboklarda uğursuz çıxış edən "Neftçi" baş məşqçi postunda dəyişiklik edə bilər.***

Baş məşqçi Samir Abasovun postu artıq laxlayıb. Ölkə çempionluğuna baxmayaraq, nə Çempionlar Liqası, nə Avropa Liqası, nə də Konfrans Liqasının qrupuna düşən "ağqaralar"da çalışdırıcı ilə rəhbərlik arasında münasibətlər heç də xoş deyil. Bu isə Abasovun tələb etdiyi transferlərin vaxtında reallaşmamasından



qaynaqlanır.

Paytaxt təmsilçisi uğursuz nəticələri Premyer Liqada da davam etdirsə, Samir Abasovla yollar ayrılacaq. Onu əvəz edəcək mütəxəssis də artıq bəllidir. Əgər bu ayrılıq baş versə, "Neftçi" rəhbərliyinin baş məşqçi postuna ilk variantı hazırda əvəzedici komandanı çalışdıran Mahmud Qurbanov olacaq. Qurbanovun azarkeşlər tərəfindən sevilməsi bu qərarda əsas rol oynayır.

Qeyd edək ki, Premyer Liqanın ilk iki turunda 4 xal toplayan "Neftçi" III tur çərçivəsində sentyabrın 12-də "Qarabağ"la qarşılaşacaq.

# Bakıdan klubuna zədəli qayıtdı - portuqaliyalı futbolçu

***Portuqaliya millisinin futbolçusu Joao Palinya zədələnib.***

Yarımmüdafiəçi DÇ-2022-nin seçmə mərhələsində Azərbaycan yığması ilə Bakıda keçirilən matçda ayağından zədə alıb.

Bu üzdən fasilədən sonra əvəzlənən Palinya klubu "Sportinq"in düşərgəsinə qayıdıb. Tibbi müayinədən sonra 26 yaşlı orta sahə oyunçusunun zədəsinin ciddi olmadığı aşkarlansa da, onun fiziki durumunun qaydasında olmadığı bildirilib. Bu isə baş məşqçi Ruben Amorimi narahat edir. Çünki "Sportinq"in Portuqaliya çempionatının V turu çərçivəsində sentyabrın 11-də "Porto" ilə keçirəcəyi görüşdə Palinyanın iştirakı sual altına düşüb.

Qeyd edək ki, Bakı Olimpiya Stadionunda keçirilən Azərbaycan - Portuqaliya qarşılaşması qonaqların 3:0 hesablı qələbəsi ilə yekunlaşıb.



# Emre Belözoğlu çalışdıracaq? - Türkiyə millisində

***Emre Belözoğlu Türkiyə millisinin baş məşqçisi ola bilər. Türkiyə millisində baş məşqçi Şenol Günəşi kimin əvəzləyəcəyi müəyyənləşib.***

Apasport.az saytının yerli mətbuata istinadən məlumatına görə, bu posta Emre Belözoğlunun gətirilməsi nəzərdə tutulub.

Türkiyə Futbol Federasiyasının prezidenti Nihat Özdemir



bu gün Şenol Günəşlə bir araya gələcək. Görüş zamanı təcrübəli mütəxəssisin istefaya göndərilməsi gözlənilir. İddiaya görə, Belözoğlunun baş məşqçi postuna gətirilməsi üçün onunla danışıqlara başlanılıb. Qeyd edək ki, Türkiyə yığması DÇ-2022-nin seçmə mərhələsinin son oyununda Niderlanda 1:6 hesabı ilə məğlub olub.

# "Qəbələ"nin "Sabah"la 16-cı dueli

***Milli komandaların oyunları ilə əlaqədar Premyer Liqada yaranan fasilə bu həftə başa çatacaq. "Qəbələ" iki gün davam edəcək III turda "Sabah"la görüşəcək.***

"Unikal" klubun saytına istinadən xəbər verir ki, turun ilk günündə meydana çıxacaq "qırmızı-qaralar" sentyabrın 11-də səfər sınağına çıxacaq. Elmar Baxşıyevin baş məşqçisi olduğu komanda üçün bu "Sabah"la 16-cı qarşılaşma olacaq. Əvvəlki 15 matçda üstünlük "Qəbələ"nin tərəfindədir. 8 dəfə rəqibini məğlub edən "Qəbələ" 2 dəfə heç-heçə edib və 5 görüşdə uduzub.

İndiyədək rəqib qapısına 19 qol vuran futbolçular 16 top buraxıblar. Davit Volkov, Klesio Bauk və Nikolas Raysel daha çox - hərəyə 3 qol vurublar.



Əvvəlki 15 oyundan 11-i çempionat, 4-ü kubok çərçivəsində keçirilib. Premyer Liqada 4 qələbə və 2 heç-heçəsi olan "Qəbələ" 5 qarşılaşmadan xalsız ayrılıb. Top fərqi də bakılıların xeyrinədir - 11:14. "Qəbələ" səfərdəki 8 görüşdə 4 dəfə qaib gəlib. Digər 4 matçda meydan sahibləri qələbə qazanıb. Bu oyunlarda top fərqində meydan sahibləri üstündür - 10-8.

Xatırladaq ki, sentyabrın 11-də keçiriləcək "Sabah" - "Qəbələ" oyunu saat 18:00-da başlayacaq.




# "Ronaldo həmişə gənc oyunçulardan yuxarı səviyyədə qalacaq"

***Yüngül atletika üzrə 8 qat olimpiya və 11 qat dünya çempionu Useyn Bolt Kriştiano Ronaldonun "Mançester Yunayted"ə qayıtmağına münasibət bildirib.***

Qol.az "BBC"yə istinadən xəbər verir ki, o deyib ki, portuqaliyalı hücumçunun Mançester təmsilçisinə geri dönməsi çox xoşdur: "Kriştiano tələbkardır, komanda yoldaşlarından çox şey tələb edəcək və bu onları daha yaxşı hala gətirəcək. Fərqli bir səviyyədədir, sadəcə bir maşındır.

Düşünürəm ki, o, 42 yaşına qədər oynayacaq. Həmişə əla formada olacaq və gördüyü iş və fədakarlığı sayəsində gənc oyunçulardan yuxarı səviyyədə qalacaq".

Xatırladaq ki, Kriştiano Ronaldo 2003-2009-cu illərdə də "Mançester Yunayted"də çıxış edib.

# PSJ "Barselona"nın bu təklifini rədd edib



***"Barselona"nın PSJ-nin futbolçusu Neymar üçün göndərdiyi transfer təklifinin detalları məlum olub.***

Qol.az "Le10Sport"a istinadən xəbər verir ki, Kataloniya klubu əsas futbolçularından Lionel Messinin Paris təmsilçisinə keçidindən sonra Neymarı geri qaytarmaq üçün qarşı tərəfə 80 milyon avro təklif edib. Lakin Liqa 1 təmsilçisi bunu qəbul etməyib.

Daha əvvəl "Barselona"nın prezidenti Joan Laporta da öz açıqlamasında PSJ-dən rədd cavabı aldıqlarını bildirib.

Qeyd edək ki, Neymar "Barselona"dan PSJ-yə 2017-ci ildə 222 milyon avroya keçib.

# Millimizin sabiq üzvü "Bursaspor"dan ayrıldı

***Millimizin sabiq üzvü Ufuk Budak 26 gün öncə transfer olunduğu "Bursaspor"dan ayrılıb.***

Qol.az xəbər verir ki, 31 yaşlı yarımmüdafiəçi Türkiyə birinci liqasının digər təmsilçisi "Büyükşehir Belediye Erzurumspor"a keçib. Bu barədə Erzurum klubunun saytı məlumat yayıb.

Qeyd edək ki, U.Budak "Bursaspor"dan cəmi 1 matçda meydana çıxmışdı.

# Almaniya millisinin olduğu təyyarədən təcili eniş

***Ötən gecə Almaniya millisini DÇ-2022-nin seçmə mərhələsində İslandiya ilə oyundan sonra Rekyavikdən Frankfurta daşıyan təyyarə qəza təhlükəsi ilə üz-üzə qalıb.***

Qol.az "Bild"ə istinadən xəbər verir ki, təyyarə əvvəlcə Rekyavikdən heç bir problem olmadan havaya qalxsa da, uçuş planlaşdırılmış şəkildə getməyib. Nəqliyyat vasitəsi Şotlandiyanın Abroath şəhərinin səmasında olarkən hava limanına təcili siqnal göndərilib. Təyyarədə fövqəladə vəziyyətin olduğu bildirilib. Nəticədə təyyarə Frankfurta yox, Edinburq şəhərinə (Şotlandiya) təcili eniş edib.

Qeyd edək ki, Almaniya millisi ötən gün İslandiya yığmasını 4:0 hesabı ilə darmadağın edib.